www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 may 2025-ci il Cümə axşamı № 79 (8689) Qiymәti 60 qәpik

## Xəbər

**Nazirlərin "şişən" müşavirləri - israfçılığı durdurmağın yolu**

yazısı səh.10-da

## Gündəm

**Azərbaycanın edam etdirəcəyi azərbaycanlı**



Yasin Hüseynzadə barəsində hökm nə vaxt icra olunacaq; Tehran o qərarı yubatdıqca...

yazısı səh.9-da

**Əliyevlə Paşinyanı o görüşdürəcək?**

yazısı səh.9-da

**Bayramovun İraq səfəri: Ərbildə konsulluq açıla bilər**

yazısı səh.3-də

**Hindistanın Pakistana qarşı xain planı - gözlənti**

yazısı səh.4-də

**Rusiyanın müəmmalı susqunluğu - Bakıya cavab gecikir**

yazısı səh.6-da

**Dünyanın ən ucuz taksisi: reytinq sırasındakı yerimiz**

yazısı səh.12-də

**Putin 9 maydan sonra müharibə taktikasını dəyişir iddiası**

yazısı səh.8-də

**Səməd Vurğunun nəvəsindən olay kimi müsahibə**

yazısı səh.12-də

**Atasının qətlini 60 minə sifariş edibmiş - məhkəmə işi**

yazısı səh.13-də

**Hər tinbaşı aptek - səbəb, çıxış yolu**

yazısı səh.15-də

**Artan tələbə intiharları - genofondumuzu necə qoruyaq?**

yazısı səh.14-də

# AZƏRBAYCANA QARŞI 9 MAY ŞANTAJI - BAKIDAN REAKSİYA

Kremlə yarınmağın yeni forması; ermənilər Putini indi də belə aldatmaq istəyirlər...

yazısı səh.7-də



## "Təkmilləşən" kiberdələduzluq - texnoloji əsrin yeni bəlasını necə buxovlamalı?

Görülən ön tədbirlərə rəğmən, təhlükə azalmır - ilginc səbəb; ekspert çağırış etdi: "Əhali üçün ən vacib məsələ..."

yazısı səh.13-də



**Milli Qəhrəman Hökumə Əliyevanın ev-muzeyi olacaq**

yazısı səh.11-də



Yohan Vedaful

**"Qarabağ Azərbaycandır" deyən şəxs XİN başçısı gətirilir**

yazısı səh.7-də



**Tramp bu "açarı" keçmiş rəqibinə verdi - Bakı üçün önəmi**

yazısı səh.6-da

# Pensiya alanların nəzərinə: bu tarixdə ödəniləcək



**Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə bu ayın pensiyalarının mayın 8-də ödənilməsi nəzərdə tutulub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.**

Qeyd edək ki, güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları bu ay da qrafik üzrə ödəniləcək.



## Prezident fərman imzaladı

**Yanacaqdoldurma obyektlərinin fəaliyyəti lisenziya tələb olunan fəaliyyət növünə aid ediləcək. Musavat.com xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlara edilən dəyişikliklərdə əksini tapıb.**

Bu fəaliyyət növünə lisenziya verilərkən lisenziyanın verildiyi tarixdən 30 gün müddətində lisenziya sahibi ilə lisenziya verən orqan arasında lisenziya müqaviləsinin bağlanması tələbi, əks halda, lisenziyanın hüquqi nəticələr yaratmaması müəyyən olunub.

Müvafiq olaraq yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına görə dövlət rüsumu müəyyənləşir. Layihəyə əsasən, yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılmasına lisenziya verilməsi üçün 1100 manat dövlət rüsumu, yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına lisenziya verilməsi üçün isə 2500 manat dövlət rüsumu müəyyən edilib.

## Bakıda evdən oğurluq edən qadın tutuldu

**Səbayel rayonunda yerləşən evlərin birindən oğurluq edilib. Paytaxt sakini olan qadın polisə müraciət edərək yaşadığı evdən çantasından içərisində 1640 manat pul və 4800 manat dəyərində qızıl-zinət əşyasının oğurlanmasını bildirib. "Unikal" xəbər verir ki, həyata keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 20 yaşlı qadın saxlanılıb.**

Qaradağ rayonu ərazisindən isə 1000 manat dəyərində təmir alətlərini talayan əvvəllər dəfələrlə məhkum olunmuş 51 yaşlı Z.Qubadov saxlanılıb. Faktlarla bağlı araşdırma aparılır.

## Sevgilisinin saçını qırxdı, həbs edildi

**Masallı rayonunda sevgilisinin başını qırxaraq onu təhqir edən şəxs həbs olunub. Oxu.Az xəbər verir ki, hadisə Masallı şəhəri, H.Səmədov küçəsində baş verib. Bakıda yaşayan Masallı rayon sakini Anar Məmmədov Masallıya sevgilisinin yaşadığı mənzilə gedib. O, yaşadığı qadının kiminləsə görüntülü danışdığını zənn edib. Bu məqsədlə Anar sevgilisinin əl-qolunu bağlayıb, saçını ülgüclə qırxıb və təhqir edib. Qadın məsələ ilə bağlı polisə şikayət edib. Şikayət nəticəsində A.Məmmədov saxlanılıb. Masallı Rayon Məhkəməsinin qərarı ilə A.Məmmədov 8 sutka müddətinə həbs edilib.**

## Sakinlərdən tapança, tüfəng götürüldü

**Mayın 6-da polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 1 avtomat silahı, 1 tapança, 2 tüfəng, 2 patron darağı və 8 ədəd müxtəlif çaplı patron aşkar edərək götürüblər. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Bildirilib ki, Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davam etdirilir.

## Əxlaqsızlıq edən ilahiyyatçıya hökm oxundu

**Abşeron Rayon Məhkəməsində 11 yaşlı qıza qarşı seksual hərəkətlər edən ilahiyyatçı Hacı Salman Kamiloğlunun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Oxu.Az xəbər verir ki, prosesdə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə Hacı Salman 3 il 9 ay azadlıqdan məhrum edilib.**

İttihama görə, hadisə ötən il iyunun 22-də saat 19 radələrində Abşeron rayonu, Masazır kəndi ərazisində baş verib. Hacı Salman 11 yaşlı qızı küçədə maşınına dəvət edib və ona qarşı seksual xarakterli hərəkətlər edib. Baş vermiş hadisə kameraya düşüb və qızın yaxınlarının polisə müraciətindən sonra araşdırmalara başlanılıb.

## Lənkəranda balıqçını cərəyan vuraraq öldürüb

**Lənkəranda 58 yaşlı kişini elektrik cərəyanı vurub. APA-nın cənub bürosunun verdiyi xəbərə görə, hadisə Lənkəran rayonunun Velədi kəndi ərazisində baş verib.**

Rayon sakini 1966-cı il təvəllüdlü Əzizağa Ağayev səhər saatlarında balıq tutmaq məqsədilə Lənkəran çayına gedib. O, balıq tutmaq istəyərkən qarmaq yüksək gərginlikli elektrik xəttinə toxunub. Bu zaman Ə.Ağayevi elektrik cərəyanı vurub. Ə.Ağayev hadisə yerində ölüb. Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.



## Bu gün 29 dərəcə isti olacaq

**Mayın 8-də gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-18° isti, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80%, gündüz 55-60% olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 15-19° isti, gündüz 24-29° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20° isti olacaq.

## Qarabağda gedən tikintilərin xərci açıqlandı

**2025-ci ilin yanvar-mart ayları ərzində azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 713 milyon 396.5 min manat vəsait sərf edilib. Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 401 milyon 588.5 min manat azdır. Belə ki, 2024-cü ilin I rübündə azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 1 milyard 114 milyon 985 min manat vəsait yönəldilib.**

Qeyd edək ki, hesabat dövründə ən çox vəsait Laçın (123 mln. 784 min manat), Zəngilan (107.7 mln. manat) və Ağdam (105.8 mln. manat) rayonlarına ayrılıb.

Xatırladaq ki, hesabat dövründə Azərbaycanda əsas kapitala 3 milyard 467.7 milyon manat vəsait yönəldilib ki, bununda 2 milyard 693.5 milyon manatı tikinti-quraşdırma işlərinə sərf edilib. Beləliklə, hesabat dövründə işğaldan azad olunmuş ərazilər üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsait respublika üzrə yenidənqurma işlərinə sərf olunan vəsaitin 26.5%-ni təşkil edib.

## Rüfət Səfərovun işi məhkəməyə göndərilir

**Xuliqanlıq və dələduzluqda ittiham olunan hüquq müdafiəçisi Rüfət Səfərovun ibtidai istintaqı başa çatıb. Report.az xəbər verir ki, hazırda Rüfət Səfərov və müdafiəçiləri cinayət işi ilə tanış olurlar. Rüfət Səfərovun cinayət işi yaxın vaxtlarda məhkəməyə göndəriləcək.**

Qeyd edək ki, Rüfət Səfərov dekabrın 3-də saxlanılıb. Binəqədi Rayon Polis İdarəsində ona qarşı Cinayət Məcəlləsinin 221.1 (xuliqanlıq), 127.2.3 (Qəsdən sağlamlığa az ağır zərər vurma, ümumi təhlükəli üsulla və ya xuliqanlıq niyyəti ilə törədildikdə) və 178.3.2 (dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

## Pezeşkiana tövsiyə: "Helikopterə minmə!"

**İran Prezidenti Məsud Pezeşkian Məşhədə səfəri zamanı ölkənin keçmiş prezidenti İbrahim Rəisinin anasına baş çəkib. Görüş zamanı sabiq prezidentin yaşlı anası Pezeşkiana helikopterdən istifadə etməməyi tövsiyə edib. "Helikopterə minməyin!", - o deyib. Qeyd edək ki, İbrahim Rəisi 2024-cü il mayın 19-da Şərqi Azərbaycan əyalətində helikopter qəzasında həlak olub.**

## 17 azərbaycanlı Almaniyadan geri qəbul edilib

**"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Saziş çərçivəsində 6 may 2025-ci il tarixində Azərbaycan Respublikası vətəndaşı olan 17 nəfər Almaniya Federativ Respublikasından geri qəbul edilib.**

Bu barədə Dövlət Miqrasiya Xidmətinin mətbuat xidmətindən məlumat verilib. "Qeyd edək ki, Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyəti əlaqələndirilən aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət Reinteqrasiya üzrə İşçi Qrupu readmissiya olunan Azərbaycan Respublikası vətəndaşlarının üzləşdikləri çətinlik və problemlərin operativ həlli, onların cəmiyyətə səmərəli, dayanıqlı sosial-iqtisadi reinteqrasiyası işinin təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirir", - məlumatda qeyd olunub.

## İctimai fəal saxlanıldı

**Biləcəridə mübahisə bıçaqlanma ilə nəticələnib. APA məlumat verir ki, mayın 6-da saat 22 radələrində 1988-ci il təvəllüdlü Dünyamalıyev Vüqar Rasim oğluna Biləcəri qəsəbəsi R.İsmayılov küçəsində qarın boşluğundan bıçaqla xəsarətlər yetirilib.**

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən şəxsin 2001-ci il təvəllüdlü, Cəlilabad rayonunda anadan olmuş Məmmədli Əhməd Vüqar oğlu olduğu müəyyən edilib və o saxlanılıb.

Faktla bağlı Binəqədi Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 126-cı maddəsi ilə cinayət işi başlanılaraq istintaq aparılır. İlkin məlumata görə, hadisəyə takside yer üstündə mübahisə səbəb olub. Saxlanılan Əhməd Məmmədli ictimai fəaldır.

## Dörd ayda 30 piyada öldürülüb

**Bu ilin 4 ayı ərzində piyada vurma qəzaları zamanı 30 piyada ölüb. Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin İctimaiyyətlə sektor müdiri Ömər Xıdırov bildirib. Məlumata görə, bu qəzalar nəticəsində 5 uşaq xəsarət alıb.**

# Ceyhun Bayramovun İraq səfəri - uçuşlar bərpa oluna, Ərbildə konsulluq açıla bilər

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İraq Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseynlə görüşüb.**



Xarici İşlər Nazirliyinin rəsmi məlumatında bildirilib ki, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Geniştərkibli görüş zamanı iki ölkə arasında gündəlikdə duran ikitərəfli və regional əməkdaşlıq məsələləri, xüsusilə də iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, kommunikasiyalar, elm, mədəniyyət, təhsil, turizm üzrə tərəfdaşlığın perspektivləri, habelə regional və qlobal vəziyyət müzakirə olunub.



Azərbaycan və İraq arasında mövcud tarixi dostluq, qardaşlıq münasibətlərinin, xalqlarımız arasında mədəni və ənənəvi yaxınlığın münasibətlərimizin inkişafında rolundan bəhs olunub. Əməkdaşlığın daha da genişləndirilməsində ali və yüksək səviyyəli təmas və səfərlərin, siyasi məsləhətləşmələr mexanizminin vacibliyi qeyd edilib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud əməkdaşlıq mexanizmlərinin, xüsusilə də Ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiya və Azərbaycan-İraq Biznes Şurasının önəminə diqqət çəkərək, ikitərəfli iqtisadi münasibətlərin, xüsusilə də enerji və qarşılıqlı sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişaf perspektivlərindən istifadənin vacibliyini vurğulayıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələlərinin müzakirə olunduğu görüşdə, həmçinin çoxtərəfli platformalar çərçivəsində nümayiş olunan dəstəyin davam etdirilməsinin də əhəmiyyəti qeyd olunub.

Humanitar və təhsil sahələri üzrə əməkdaşlığın inkişafından bəhs olunub, İƏT və Qoşulmama Hərəkatına üzv dövlətlərdən olan tələbələr üçün təqaüd proqramları, o cümlədən Heydər Əliyev Beynəlxalq Təhsil Təqaüdü kimi təşəbbüslərin faydalılığı vurğulanıb.

Səfər çərçivəsində həmçinin ADA Universiteti və İraq Respublikasının Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının da təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində əlamətdar hadisə olduğu qeyd edilib.

Görüş zamanı həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri, Yaxın Şərqdə mövcud vəziyyət, Hindistan-Pakistan gərginliyi, eləcə də postmünaqişə dövründə bölgəmizdə mövcud reallıqlar, ölkəmizin bərpa və yenidənqurma, minatəmizləmə və sülh səylərindən ətraflı bəhs olunub.

Daha sonra nazirlər media nümayəndələrinin iştirakı ilə təşkil olunmuş mətbuat konfransı çərçivəsində görüşün yekunlarına dair bəyanatlarla çıxış ediblər.

**İraqın xarici işlər naziri Fuad Hüseyn Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə birgə mətbut konfransında Azərbaycanın Ərbildə konsulluğunun açılmasını təklif edib.** “Hər il İraqdan Azərbaycana və əksinə gedən nümayəndə heyətlərinin sayı artır. Əvvəllər Bakı Bağdad, Ərbil və Nəcəflə birbaşa reyslərlə bağlı idi. Bu baxımdan, bu gün danışıqlarda biz hava əlaqələrinin bərpasını təklif etdik. Həmçinin Azərbaycanın Ərbil şəhərində konsulluğun açılmasının vacibliyini qeyd etdik”.

İraq XİN başçısı həmçinin Azərbaycan vətəndaşı olan qadın İŞİD üzvlərinin mövcudluğunu və onların öz ölkəsinə qaytarılmasının müzakirə olunduğunu bildirib. “Xarici İşlər Nazirliyi bu məsələləri davamlı olaraq izləyir”, - deyə İraq XİN rəhbəri əlavə edib.

Xatırladaq ki, aprelin 20-də Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İraqa səfər edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, səfər çərçivəsində Bağdad şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, İraq tərəfindən isə xarici işlər nazirinin ikitərəfli əlaqələr üzrə müavini Məhəmməd Hüseyn Bahr Al-Ulum rəhbərlik edib.

❑ **Nİgar HƏSƏNLİ, “Yenİ Müsavat”**

# Serbiya Prezidentinin təyyarəsi Bakıda məcburi eniş etdi

**Moskvaya səfərə yola düşən Serbiya Prezidenti Aleksandar Vuçiçin təyyarəsi Bakıya məcburi eniş etmək məcburiyyətində qalıb.**

Bu barədə Serbiya mediası məlumat yayıb.

Məlumata görə, Vuçiçin təyyarəsi Ukraynadakı müharibə və Rusiyanın hava məkanındakı hərbi əməliyyatlar səbəbindən Azərbaycanda eniş etmək məcburiyyətində qalıb.

Qeyd edək ki, Vuçiç 9 may münasibətilə Qırmızı meydanda nasizm üzərində qələbənin 80 illiyinə həsr edilmiş hərbi paradda iştirak etmək üçün Rusiya paytaxtına səfərə yola düşüb (APA).

Bundan əvvəl belə bir məlumat yayılmışdı ki, Baltikyanı ölkələr Serbiya liderinin Moskvaya uçmasını əngəlləmək üçün hava məkanını bağlayıblar.

❑ **“Yenİ Musavat”**

# Ermənistan ordusunda maaş qalmaqalı

**Ermənistan ordusunda sıravi müqaviləli hərbçilərin maaşı cəmi gündə 1700 dram (4 dollar) təşkil edir.**

Musavat.com erməni mediasına istinadla xəbər verir ki, bu barədə Ermənistanın müxalifətdəki “Ermənistan” blokunun deputatı, daşnak siyasətçi Geqam Manukyan çıxış edib.

Onun sözlərinə görə, deputatlar, hökumət üzvləri və polis əməkdaşları, sərhədlərdə hava şəraitindən asılı olmayaraq fasiləsiz təhlükəsizlik təmin edən hərbçilərlə müqayisədə dəfələrlə çox maaş alırlar.

Bu fikrə müdafiə nazirinin müavini Arman Sarkisyan etiraz edib. O bildirib ki, “bizdə gündə 1700 dram maaş anlayışı yoxdur. Döyüş növbəsində olan müqaviləli hərbçilər ən azı gündə 4000 dram alırlar. Bu məbləğ mövqelərin təminat səviyyəsinə görə arta da bilər. Və bu, minimum əmək haqqıdır.”

Nazir müavini əlavə edib ki, Nazirlər Kabinetinin 712 nömrəli qərarına əsasən, bu məbləğə müxtəlif əlavələr də olunur. Onun iddiasına görə, hərbçilərin minimum maaşı 220 min dramdır.

❑ **Musavat.com**

# Buna görə Pakistanın yanında, Hindistanın önündəyik!

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com



**Dost dardadırsa, əlbəttə ki, rahatlıq tapmaq mümkünsüz. Söhbət Azərbaycanın barmaqla sayılacaq ən sadiq, ən sınanmış müttəfiqlərindən biri, Ermənistanı hələ də dövlət kimi tanımayan yeganə BMT üzvü Pakistandan gedir. Şəkk-şübhə yox ki, qonşu Hindistanın zorla sürüklədiyi budəfəki qarşıdurmada o, gərəkənləri tərəddüdsüz edəcək.**

Gerçək belədir ki, Pakistan Hindistana yox, ikinci birinciyə hücum edib. Bəhanə məlum. Guya İslamabad Hindistan ərazindəki son terror hücumunun sifarişçisidir. Yəni Pakistanı faktiki terrorçuluğun sponsoru kimi təqdim edilir.

Halbuki dinc əhaliyə qarşı gerçək terrorçu davranışı sərgiləyən məhz ifrat sağçı partiyanın (HXP) lideri, neçə ildir hakimiyyətdə olan faşist təmayüllü Narendra Modi hökumətidir. Hansı ki, Kəşmirin özünün nəzarətində olan hissəsində (55%) vaxtaşırı müsəlman əhaliyə qarşı insanlığa sığmayan əməllər törədir.

Modinin dövründə o sırada vilayətin xüsusi statusu ləğv edilib. Müsəlman iş adamlarına irqçi bir münasibət bərqərar edilib. Hətta müsəlmanların öz dini inancını, ibadətini normal, sakitcə yerinə yetirməsinə qarşı dözülməz mühit yaradılıb.

Qısacası, rəsmi Nyu-Dehli xüsusilə Modi rejimi dövründə islam dini daşıyıcılarına “ikinci sort” kütlə kimi baxır və cəmiyyətdə də onlara qarşı eyni təbliğatı körükləyir. Belə olan surətdə müsəlman əhaliyə qarşı yumşaq desək, bu qəbil ksenofobik davranışın cavabı olmalı deyildi?..

İslam Peyğəmbəri (s) buyurub ki, “dininizə təhlükə varsa, canınızı verin, dininizi qurtarın”. İnsanların, icmaların özünü müdafiə hüququ deyilən anlayış var. Demirik ki, terrorun cavabı terrorla verilməlidir. Terrorçunun dini-imanı, milliyyəti olmaz.

Ancaq xuntaçı Modi hökuməti yalnız başqa inancdan olduğu üçün illərdir yerli əhaliyə qarşı vəhşiliklər edəndə, qan udduranda, onun təməl haqlarını mütəmadi tapdayanda, müsəlman qadınlara qarşı əxlaqsızlıqlar törədəndə, bunun hansısa şəkildə qarşılığının olacağını ciddiyə almalı idi...

Ümid edək ki, ermənilərin dostu (dostunu göstər, deyim kimsən) Hindistan vaxtında ayılıb düzgün nəticə çıxaracaq və axmaq qərarlar verməyəcək. Çünki Pakistan əhali və ərazicə ondan kiçik olsa da, hərbi qüdrəti ondan geri qalmır. Bir sıra sferalar üzrə isə irəlidədir. Bizə hələ nüvə başlıqlarını demirik. Üstəgəl, Çin və Türkiyə kimi qüdrətli müttəfiqləri var. Ən əsası qardaş Pakistan haqlı və müdafiə olunan tərəf!

Azərbaycan xalqı əlbəttə ki, bu qarşıdurmada qeyd-şərtsiz və tərəddüdsüz öz qardaşının yanındadır. Ən əvvəl haqlı mövqedə olduğu üçün. Azərbaycanı dostları haqsız ola bilməz.

Söz düşmüşkən, Minval.az Telegram kanalında “Hindistan və Pakistan arasındakı münaqişədə kimi dəstəkləyirsiniz” mövzusunda anonim sorğu keçirir. Bu dəqiqəyə səsvermədə iştirak edənlərin 84%-i Pakistanın adını çəkib. Təəccüblümü? Əsla...

Pakistan bizim hərbi dəstəyimizə ehtiyac duymasa da, bütün hallarda ürəklərimizlə, dualarımızla, lazım gəlsə, PUA-larımızla, silahlarımız və canımızla qardaşlarımızın yanında, Hindistanın isə önündəyik. Bizim dost itirən vaxtımız deyil. Xüsusən də o dost ki, ona vəfa borcumuz var.

Əminik, Allah eləməmiş, yenə dara düşsək, eyni istiliyi və doğmalığı Pakistan xalqından görəcəyik. Qeyd-şərtsiz və tərəddüdsüz. Dilimiz fərqli olsa da, bizi bizdən yaxşı kim anlayar ki. Əsas olan qəlblərin, könüllərin birliyi.

Kəşmir Pakistandır və nida işarəsi!

# Kəşmirdə gərgin gecə: Hindistan hücum etdi, Pakistan cavab verdi

**Ötən gecə Hindistan Pakistanın üç şəhərinə raket zərbələri endirib. Ölkənin Müdafiə Nazirliyi məlumat yayaraq bildirib ki, hədəf Pakistandakı “terror infrastrukturu”dur. Hindistan Silahlı Qüvvələri Pakistan ərazisində 9 hədəfə hücum edib. Hücum nəticəsində Pakistanın nəzarətində olan Kəşmirdə bir neçə güclü partlayış baş verib. Partlayışlar Cammu və Azad Kəşmirin paytaxtı Müzəffərabad ətrafındakı dağlarda və daha iki ərazidə eşidilib. Partlayışlardan sonra Müzəffərabadda elektrik enerjisi kəsilib**

Hindistan Müdafiə Nazirliyi bildirib ki, Pakistana zərbələr Pahalqamdakı terror aktına cavab olaraq həyata keçirilib. Qeyd edilib ki, Hindistan Silahlı Qüvvələri Sindoor əməliyyatı çərçivəsində Pakistandakı hədəflərə zərbələr endirib.

“Bizim hərəkətlərimiz məqsədyönlü, balanslaşdırılmış və eskalasiya ilə bağlı olmayıb”, - nazirlik əlavə edib.

Hindistan ordusunun Pakistana endirdiyi hava zərbələri nəticəsində uşaqlar və qadınlar da daxil olmaqla, 26 nəfər ölüb, yaralıların sayı isə 60 nəfərə çatıb.

Pakistan isə bu hücumları “müharibə aktı” adlandıraraq Hindistanın mülki obyektləri və dini məkanları hədəf aldığını bildirib və Hindistan ərazisinə cavab zərbələri endirib. Ölkənin Müdafiə Nazirliyinin məlumatına görə, hava döyüşləri zamanı Hindistanın 5 hərbi təyyarəsi vurulub: üç “Rafale” qırıcısı, bir “Su-30” və bir "MiQ-29". Yeni Dehli itkiləri rəsmi olaraq təsdiqləməyib. Pakistan ordusu Kəşmirdəki hədəflərə bir sıra artilleriya və raket zərbələri endirib. Samaa TV mənbələri Hindistan ordusu briqadalarından birinin qərargahının məhv edildiyini iddia edib.

Pakistanın müdafiə naziri Xavaca Asif qonşu ölkənin hərəkətlərini “qorxaqlıq” adlandırıb. O, İslamabadın cavabının “daha güclü və ucadan” olacağını vəd edib.

“Cəsarətin varsa, bizim döyüş meydanına çıx, sonra kişilər kimi bu məsələni həll edək”, - deyə Asif bildirib. Pəncab əyalətində fövqəladə vəziyyət elan edilib. Şahbaz Şərif Milli Təhlükəsizlik Komitəsinin iclasını çağırıb. Pakistan Xarici İşlər Nazirliyi xəbərdarlıq edib ki, Hindistanın hərəkətləri “regional sabitliyi təhdid edir və nüvə gücləri arasında birbaşa toqquşmaya səbəb ola bilər”.

Pakistan ordusu Hindistanı Kəşmirdəki “Nilum-Celum” su elektrik stansiyasına hücumda ittiham edib. Bu barədə Samaa telekanalı Pakistan ordusunun sözçüsü general-leytenant Əhməd Şərif Çaudrinin bəyanatına istinadən məlumat yayıb.

Pakistan hava məkanını 48 saat ərzində bütün mülki təyyarələr üçün bağlayıb. Bu qərar daxili və beynəlxalq uçuşların qəbulu və yola salınmasının dayandırılması ilə nəticələnib. Ölkənin paytaxtı İslamabaddakı beynəlxalq hava limanı bağlanıb, bütün gələn və gedən reyslər ölkənin ucqar cənubunda yerləşən Kəraçi hava limanına yönəldilib. Pakistan rəsmiləri sərnişinlərə hava limanlarına gəlməməyi, orada olanlara isə onları tərk etməyi tövsiyə edib. Mülki Aviasiya İdarəsi vəziyyət sabitləşdikdən sonra uçuşların bərpa ediləcəyini bildirib.



Azərbaycan Hava Yolları QSC (AZAL) Bakıdan Hindistanın Mumbay şəhərinə həyata keçirməyi planlaşdırdığı 2-059 nömrəli reysi Pakistanın hava məkanının bağlı olması səbəbindən təxirə salıb.

ABŞ Prezidenti Donald Tramp Hindistan və Pakistan arasındakı vəziyyəti “rüsvayçılıq” adlandırıb və hərbi əməliyyatları dərhal dayandırmağa çağırıb. O, tərəflərin “çox tezliklə” diplomatik həll tapacağına ümid etdiyini bildirib.

ABŞ dövlət katibi Marko Rubio Vaşinqtonun hər iki ölkənin hökumətləri ilə birbaşa təmasda olduğunu təsdiqləyib və gərginliyin qarşısını almaq üçün maksimum təmkinli olmağa çağırıb.

BMT-nin baş katibi Antonio Quterres sözçüsü Stefan Düjarrik vasitəsilə Hindistanın hərəkətlərindən “dərin narahatlığını” ifadə edib və Yeni Dehli və İslamabadı genişmiqyaslı münaqişəyə səbəb ola biləcək növbəti addımlardan çəkinməyə çağırıb.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova bildirib ki, Moskva Hindistan və Pakistan arasında hərbi qarşıdurmanın kəskinləşməsindən dərin narahatdır: “Rusiya vəziyyətin daha da pisləşməsinin qarşısını almaq üçün tərəfləri təmkinli olmağa çağırır”.

Azərbaycan Hindistanla Pakistan arasında gərginliyin daha da artması ilə bağlı narahatlığını bildirib. Bu barədə Xarici İşlər Nazirliyi bəyanat yayıb. Məlumatda Pakistana qarşı bir neçə mülki şəxsin ölümü və yaralanması ilə nəticələnən hərbi hücumlar pislənib.

“Pakistan xalqı ilə həmrəy olaraq günahsız qurbanların ailələrinə başsağlığı verir və yaralananların tezliklə sağalmasını arzu edirik. Tərəfləri təmkinli olmağa və münaqişəni diplomatik yollarla həll etməyə çağırırıq”, - deyə qeyd olunub.

Xatırladaq ki, 22 apreldə “Kəşmir müqaviməti” döyüşçüləri Cammu və Kəşmir ştatlarında hindistanlı turistlərə atəş açıb. Hadisədə 30 nəfər, o cümlədən Hindistan hərbi hava qüvvələri və donanmasının zabitləri həlak olublar. Sağ qalanların ifadəsinə görə, hücum edənlər ad və dini mənsubiyyəti soruşaraq qeyri-müsəlmanları güllələyiblər.

Aprelin 30-da isə Pakistanın informasiya və yayım naziri Attaullah Tarar bəyan etdi ki, İslamabadda Pahalqam hadisəsindən yalan dolu bəhanələr kimi istifadə edilərək Yeni Dehlinin hərbi zərbələr endirməyi planlaşdırdığına dair etibarlı məlumat var. Tarar vurğulayıb ki, Pakistan istənilən təcavüz aktına qəti cavab verəcək.

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# Rus səfirin Simonyanla sirli söhbəti - Lavrov İrəvana hansı qovluqla gedir?

## “Paşinyan komandasının vasitəçilik etməsi arzuolunan hal deyil”

**Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistana səfər edəcək. Bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan məlumat verib. O, səfərin dəqiq tarixini açıqlamasa da, bunun yaxın vaxtlarda baş tutacağını bildirib.**

Rusiya Federasiya Şurasının spikeri Valentina Matviyenkonun da Ermənistana səfəri gözlənilirdi. Lakin ötən ilin dekabrından səfər gerçəkləşmir.

Bu arada isə Ermənistanın “Hraparak” nəşri spiker Alen Simonyanın Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkinlə görüşdüyünü, bundan sonra onun ritorikasının sərtləşdiyini yazıb. Spiker brifinqdə anti-Rusiya bəyanatı verib və bildirib ki, Ermənistana qarşı hibrid müharibə aparılır.

O, keçmiş prezident Robert Köçəryanı da rus casusu adlandırıb. Erməni qəzeti yazıb ki, parlamentin sədri bu bəyanatı məhz rus səfirlə görüşdən dərhal sonra verib.

Maraqlıdır, Kopırkin Simonyana nə çatdırıb ki, onun son vaxtlar yumşalan anti-Rusiya ritorikası yenidən sərtləşib? Rusiya rəsmilərinin Ermənistana gözlənilən səfərləri hansı məramı daşıyır? Lavrovun qovluğunda nələr var?



“Hraparak” bildirib ki, Simonyanla Kopırkin Matviyenkonun gözlənilən rəsmi səfərini də müzakirə ediblər.

“Əslində Sergey Lavrovun qovluğunda bir çox məsələlər ola bilər. Amma hesab edirəm ki, həmin qovluqda olan bütün məsələlərin sonu suallı ola bilər. Çünki Nikol Paşinyan hakimiyyətinin Qərblə münasibətlərə dair atdığı bəzi addımlar Rusiyada narahatlıq və narazılıqla qarşılanıb”.

Bunu “Yeni Müsavat”a **millət vəkili Vüqar İskəndərov** deyib.

O qeyd edib ki, rəsmi Moskva Ermənistanın ikili oyununa son qoyulmasını, yəni Qərb, yoxsa Rusiya seçimini etməsini istəyir: “Ermənistan hakimiyyəti bir tərəfdən guya Rusiya ilə dost olduğunu nümayiş etdirsə də, reallıq tamamilə başqa mətləblərdən xəbər verir. Hazırda Ermənistan getdikcə daha çox Qərbin çətiri altına girir. Bu, azmış kimi, sərhədə nəzarət bəhanəsi ilə NATO generalları, Avropa hərbçiləri regiona gətirilir. Xüsusilə də Fransanın Cənubi Qafqazda peyda olması və buna məhz Paşinyan komandasının vasitəçilik etməsi arzuolunan hal deyil. Təbii ki, bütün bunlar Kremli narahat edir və qəzəbləndirir”.

**V.İskəndərov əlavə edib ki, görünür, Rusiya artıq Ermənistandan konkret suallara dəqiq cavab istəyir:** “Hesab edirəm ki, Alen Simonyanın Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkinlə görüşündən sonra anti-Rusiya bəyanatı verməsinin kökündə də bu amil dayanır. Çox güman ki, rəsmi Moskva səfirin dili ilə Paşinyan komandasına "ağıllı olmağı", əks təqdirdə, ölkədə siyasi gərginliklərin pik həddə çata biləcəyinə dair xəbərdarlıq çatdırıb. Həmin görüşdən sonra Alen Simonyanın Ermənistana qarşı hibrid müharibə aparıldığını deməsi və keçmiş prezident Robert Köçəryanı da rus casusu adlandırması bu ehtimalları gücləndirir".

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramovun sözlərinə görə, ümumiyyətlə götürdükdə Simonyanı davamlı şəkildə anti-Rusiya mövqeyi ilə seçilən biri kimi xarakterizə etmək olar:** “Rusiyanın ünvanına olan məlum açıqlamalar, Rusiyanın Ermənistanda vəziyyəti qarışdırmağa cəhd etməsi kimi bəyanatlar Simonyan tərəfindən bundan əvvəl də səsləndirilib və Rusiya rəsmiləri tərəfindən də cavablandırılıb.

Simonyanın indi səsləndirdiyi iddiaların səfir Kopırkinlə görüşdən sonraya təsadüf etməsi isə onu göstərir ki, Simonyan Rusiya səfiri ilə görüşdə ondan istədiklərini ala bilməyib və ya Rusiya tərəfinin istəkləri Ermənistan hakimiyyətinin maraqlarına cavab verməyib. Ermənistanın Avropa İttifaqına üzvlük prosesinə start verməsi, məlum layihənin parlamentdə qəbulu və Prezident tərəfindən də təsdiq olunması təbii olaraq Rusiyanın maraqlarına cavab vermir və rəsmi Kreml bununla bağlı mövqeyini də gizlətmir. Odur ki, indi səfir vasitəsilə bu istiqamətdə fəaliyyətin davam etdirilməsinin Ermənistan üçün ağır nəticələrə səbəb olacağına dair xəbərdarlıq edilməsi ehtimalı kifayət qədər yüksəkdir. Elə Rusiya xarici işlər naziri Lavrovun Ermənistana səfər etməsində də əsas məqam bununla bağlı olacaq. Ukrayna cəbhəsində müəyyən arxayınlıq əldə edən Rusiya mövqeləri zəifləmiş regionlarda öz ənənəvi mövqeyini bərpa etmək üçün hərəkətə keçməyi planlaşdırır. Burada ilk yerdə məhz Ermənistan dayanır. Odur ki, Rusiya rəsmilərinin Ermənistana səfərinin rəsmi İrəvana təzyiq xarakterli olacağı ehtimalı kifayət qədər yüksəkdir.

Rusiyanın əlində isə təzyiq üçün kifayət qədər rıçaqlar mövcuddur. Rusiya hələ ki, ancaq özünün “beşinci kolon”u, yəni Köçəryan-Sərkisyan cütlüyü və kilsə vasitəsilə təzyiqi davam etdirir və hələ ki iqtisadi təzyiq rıçaqlarını işə salmır. Amma Ermənistanın davamlı şəkildə Rusiya maraqlarının ziddinə fəaliyyəti bu istiqamətdə təzyiq ediləcəyini də deməyə əsas verir. Çox güman ki, Rusiya artıq səfir vasitəsilə etdiyi xəbərdarlığı, yüksək səviyyədə Lavrov vasitəsilə də Ermənistan rəhbərliyinin diqqətinə çatdıracaq. İstənilən halda qarşıdakı seçki dönəmində Ermənistanın yenidən Rusiya ilə Qərb arasında mübarizə meydanına çevriləcəyi şübhəsizdir”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 79 (8689) 8 may 2025

# Qəhrəman yüzbaşı və Hikmət Sabiroğlu

## Qəhrəman yüzbaşı: "A balam, erməni, bir de görüm bizdən nə istəyirsiniz? Sənnən söz soruşuram ey, niyə dinmirsən? Kar deyilsən ki! Bir de görüm, bizdən niyə əl götürmürsünüz?"

**Erməni Baxşı (qorxa-qorxa): - Ay ağa, Allah haqqı, mən heç nə eləməmişəm.**



Qəhrəman yüzbaşı (acıqlı və ucadan): - Hə, eləməmisən! Vallahı, dünyada nə qədər canım sağdı, hansı biriniz əlimə keçsəniz, tikə-tikə doğrayacağam! Sizin gərək toxumunuzu yer üzündən kəsəm!

Baxşı: - Ay ağa, axı mən nə eləmişəm?

Qəhrəman yüzbaşı birdən durur ayağa, qəməsini qınından çıxardır və acıqlı, ucadan Baxşıya deyir:

- Adə, erməni, tez kəmənçəni yığışdır, itil get buradan! Yoxsa atanın goru haqqı, bu yoldaşlarımın başına and olsun, bu qəməynən bu saat səni də öldürərəm, özümü də öldürərəm! (Çığırır). Çıx get!

Cəlil Məmmədquluzadənin "Kamança" pyesindəndir bu qeydlər. Faciə janrında olan əsərin mövzusunu Mirzə Cəlil 1918-1920-ci illərdə Qarabağda baş vermiş erməni-müsəlman qırğınından götürmüşdü. Əsər 1920-ci ildə, Şuşada yazılıb...

O zaman gəlmə hay-erməni tayfası müsəlmanlara, türklərə qarşı artıq neçə dəfə qırğınlar törətmişdi. Hansını deyək, hansını yazaq? Kürəkçay müqaviləsindən sonra Qarabağa, İrəvan xanlığının ərazisinə köçürülənlərin bu yerlərin əhalisinə divan tutmasınımı? Osmanlı imperiyasının tərkibində qudurub, türklərə xəyanət etmələrini, sonra da "ay aman, qoymayın, bizi soyqırım edirlər", deyib, cahan boyunca saxtakarlıq etmələrinimi, 1905-ci ildə, daha sonra 18-20-ci illərdə azərbaycanlıları uşaq, qadın, qoca bilmədən süngüyə keçirmələrinimi? Elə ən yaxın tariximizdə Qubadan Göyçaya, Lənkərana, Mingəçevirədək, Bakı daxil, erməni daşnakları türkləri məhv edib, tarixi irsimizi yer üzündən silirdilər, Nuru Paşanın rəhbərliyi ilə qəhrəman ordu köməyimizə gəldi. Bütün bunlara baxmayaraq, İrəvanı, digər əraziləri güzəştə getdi Cümhuriyyət qurucularımız, məcburiyyətdən, həm də ermənilərin bir daha Azərbaycana qarşı iddialarının olmayacağı vədinin qarşılığında. Amma bitmədi... Qopara-qopara üstümüzə gəldilər. Qərbi Zəngəzuru Nevədiyədək qopardılar. 80 il öncə "sovet ailəsi"nin faşizm üzərində qələbəsindən cəmi 3 il sonra, 1948-53-cü ildə 400 min qurban verən, Bakı nefti hesabına qələbənin qazanılmasında əvəzsiz rol oynayan bizlərə "mükafat" əvəzi... Qərbi Azərbaycandakı insanlarımızı Azərbaycana sürgün etdilər. Ermənilərin təhriki ilə. 1988-ci ildən sonrakı hadisələr də hər birimizə bəllidir...

Dostları ermənilər tərəfindən öldürülən Qəhrəman yüzbaşının dediklərini bilirsiniz niyə xatırladım? Hikmət Sabiroğlunun məhkəmədəki ifadəsini, daha sonra onun məhkəmə ilə bağlı yazısını oxuyanda. Məhkəmə ifadəsindən sonra nələrsə yazmağı planlaşdırırdım. Baxdım ki, mən hələ fikirlərimi toplayıb, yaza bilməmişəm, Hikmət qardaşımız artıq sözünü dedikdən sonra məhkəmə yazısını da yazıb.

Hikmət Sabiroğlu Bakıda mühakimə olunan separatçı ermənilərdən zərərçəkən həmvətənlərimizdəndir. Dövlətimiz onun ata evinə dəyən ziyanın 1 milyon olduğunu müəyyənləşdirib. Amma nə olsun, ürəyi soyumur. Çünki düşmən qaçqınlıq-köçkünlük həyatı yaşatdığı insanlarımıza elə zərbələr vurub ki, onun əvəzi heç bir pulla qarşılana bilməz.

**Hikmət Sabiroğlu deyir**: "Heç nə deyə bilmirəm...

... Bu qəfəsdə oturanlara baxıram, dustaqdırlar, biz şuşalıyıq, bizə yaraşmaz qolubağlı adama göz ağartmaq... Amma, vallah, adam adama belə pislik eləməz axı..."

Qəhrəman yüzbaşının dedi-yi sözləri xatırladır bir az da. "Adə, erməni, tez kəmənçəni yığışdır, itil get buradan. Yoxsa..."

Bax, biz belə böyük ürək sahibiyik. Qəhrəman yüzbaşının yurdunu darmadağın edən, doğmalarını qətlə yetirən erməni Baxşını əfv etməsi ilə Hikmətin "biz şuşalıyıq, bizə yaraşmaz qolubağlı adama göz ağartmaq..." qeydləri... Amma bəlkə də elə bizim ifrat humanizmimizdən sui-istifadə etdi nankor düşmən, bir əsrdə neçə dəfə boğazımıza ilan kimi dolandı. Sözsüz, bu dəfə qərarı DÖVLƏTimiz verəcək, tarixdə heç zaman olmayan Ədalət Məhkəməsini reallaşdıran Azərbaycan Respublikası! Amma bilirsiniz nə qədər adamımızın ürəyindən yük götürüldü.

Hikmət Sabiroğlunun bu məhkəmədə qalib ölkənin vətəndaşı, qalib, məğrur şuşalı olaraq iştirakını bəlkə özü qədər elə mən də gözləyirdim. Bilirsiniz niyə? Yəqin ki, Hikmət bəy xatırlayar: dəhşətlərlə dolu işğal illərində silsilə yazılar yazır, müsahibələr alırdım Qarabağla bağlı. Bir gün Hikmət Sabiroğlunu redaksiyamıza dəvət etdim, "Yeni Müsavat"a. Ha söhbətə körpü salmaq istədim, ha Qarabağdan, Şuşadan danışdırmağa cəhd göstərdim, alınmadı, Hikmət bəy "axı nə danışım, Şuşa gedib e...", deyib, müsahibəyə razılaşmadı. Təbii ki, xətrimə dəymədən, həmişəki kimi, saygı ilə, həssaslıqla. Mən də onun hansı hisslər keçirdiyini anladığım üçün bir saatdan artıq davam edən "kökləmə" istəyindən daşındım. Çünki...

Bir yuxu görmüşdüm: Şuşaya turist kimi getdiyimi və şəhəri ağrı-acı içərisində dolaşandan sonra... "sərhəd post"ndan keçərkən erməni sərhədçilərin bizə saymazyana münasibətini, açıq şəkildə ələ salmalarını görüb hönkürmüşdüm və səsimə ayılmışdım. Şuşaya ayağı dəyməyən biri olaraq yuxunun əzabını yaşadığım halda, Şuşada yurdu dağılan Hikmət Sabiroğlunu anlamağım elə də çətin deyildi.

Bir dəfə də bulvarla üzü Bayıla sarı gedirdim. Baxdım ki, qarşıdan Hikmət Sabiroğlu gəlir. Düşündüm ki, yaxınlaşanda salamlaşıb, hal-əhval tutarıq. Əlində siqaret, dənizə tərəf gözlərini ayırmadan, az qala çiynimə toxunacaqmış kimi, keçib getdi. O qədər fikirliydi ki... İstəmədim xəyallardan ayıram, düşündüm ki, bəlkə gedib-gələ bilmədiyi Şuşa haqda düşünür, heç olmasa şuşalı düşüncələrindən ayırmayım.

**Hikmət bəy yazır:** ""Şuşanın dağları" çalınanda kanalı dəyişirdim. Bir şuşalı toyda bu havaya qol götürəndə içimdə deyirdim ölməyib sağ qalmışıq, hələ oynamağın da var... Mənim şəhərimi dağıtdı düşmən".

Bütün bu ağrıları yaşamış adamın Ədalət Məhkəməsində iştirakının özü tarixdir! Bəli, o ağrını ürəyində daşıyıb Hikmət qardaşımız və onun kimi yüz minlərimiz.

Hər il mayın 8-i yaxınlaşanda ürəyimiz qübar bağlayırdı. Ermənilərin Xanxləndidə Şuşanı işğal etmələrini paradla qeyd etmələrindən havalanırdıq. Elə indi sülhdən danışan Paşinyan da 2018-ci ildə, baş nazir seçiləndən sonra tullana-tullana Şuşaya, Xankəndinə gəlmişdi, "qələbə günü"nü qeyd eləməyə. "Dağlarda toy" əməliyyatını araq-çaxır içərək, "Yallı" gedərək qeyd edirdilər. Ürəyimizi partlatmaq istəyirdilər, hamılıqla, Hikmət qarışıq. Arzularına çata bilmədilər, burunlarından gəldi. Dəmir Yumruq sözünü dedi, İlham Əliyevin cəngavərləri Şuşanın sıldırım dağlarına hələ də dünya hərb mərkəzlərinin anlaya bilmədiyi cığırlarla qalxıb, qalanı azad etdilər!

Amma 28 il 8 aylıq Şuşa... həsrəti ilə o qədər pislik etdilər ki... İndi himayədarları güman edir ki, Azərbaycan məhkəməsi də Baxşının qandaşlarına, arutyunlara, babayanlara, vardanyanlara "kəmənçəni də götürün, itilin", deyəcək və yenidən əfi ilana dönəcəklər bizə qarşı. Olmayacaq! Ədalətli məhkəmə qərarı mütləq veriləcək ki, türkə qənim kəsilənlərin hər biri tarix boyunca dərs alsın.

**❑ Elşad PAŞASOY,**
**Musavat.com**

# Erməni ekspert: "Ermənistanda hər dörd nəfərdən biri yoxsuldur"



**Rəsmi statistikaya əsasən, 2025-ci ilin aprel ayında ötən ilin eyni dövrü ilə müqayisədə Ermənistanda tərəvəzlərin qiyməti 17,9%, meyvələrin qiyməti isə 7,9% artıb. Narahatlıq doğuran məqamlardan biri də budur ki, bu artım təkcə illik deyil, həm də cari ilin mart ayı ilə müqayisədə də müşahidə olunur ki, bu da ölkədə ərzaq sektorunda inflyasiyanın davam etdiyini göstərir.**

Musavat.com erməni mediasına istinadla xəbər verir ki, bu barədə yerli iqtisadçı Suren Parsyan bəyan edib.

Rəsmi məlumatlara görə, Ermənistan əhalisinin hər dörd nəfərindən biri yoxsuldur və gəlirlərinin böyük hissəsini ərzaq məhsullarına, o cümlədən qiymətləri ikirəqəmli faizlərlə artan tərəvəzlərə xərcləyir. Bu vəziyyət yoxsulluğu daha da dərinləşdirir.

Qiymət artımının əsas səbəbi kimi isə aqrar sahədəki uğursuz siyasət göstərilir və bu siyasətin təcili şəkildə yenidən nəzərdən keçirilməsi tələb olunur. Qeyd etmək lazımdır ki, Ermənistanda istehsal edilən bir sıra məhsulların da qiyməti kəskin şəkildə artıb: məsələn, kartof 47%, xiyar 16,6%, alma 16,4%, çiyələk isə 23,7% bahalaşıb.

**❑ Musavat.com**

# Baltik ölkələri Serbiya liderinin Moskvaya uçuşuna hava məkanını bağladı



Aleksandar Vuçiç

**Litva və Latviya Serbiya lideri Aleksandar Vuçiçə Moskvaya uçuşu üçün hava məkanı təqdim etməyiblər.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu qərar "uçuşun siyasi həssaslığı" səbəbi ilə verilib. Prezident Vuçiç Rusiyaya nasizm üzərində qələbənin 80 illiyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün səfər etməli idi.

Latviyanın prezidenti Edqars Rinkeviçs və baş naziri Evika Silina hava məkanının bağlanmasını təsdiqləyərək bildiriblər ki, bu qərar Baltikyanı ölkələrin xarici işlər nazirliklərinin rəhbərləri tərəfindən birgə şəkildə qəbul edilib. Eyni səbəbdən Slovakiya Prezidenti Robert Fitsoya da Polşa və Litva öz hava məkanlarını bağlayıb.

**❑ Musavat.com**

# Ukraynalıların 47%-i ABŞ-la sazişə inanır

**Ukraynalılar arasında ABŞ-la imzalanan yeraltı sərvətlər üzrə sazişdən razı qalanlar çoxalıb.**

Musavat.com "Qordon media"ya istinadən xəbər verir ki, Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun (KBİS) may ayının əvvəlində apardığı sorğunun nəticələrinə görə, ukraynalıların 47%-i ABŞ-la yeraltı sərvətlərin işlənməsi üzrə sazişin imzalanmasını əsasən müsbət qarşılayır.

Respondentlərin 22%-i isə mümkün neqativ nəticələrdən narahat olduqlarını bildirib. Sorğuda iştirak edənlərin 19%-i bu sazişin Ukraynaya heç bir təsir etməyəcəyini düşünür. Qalan 12% isə fikrini bildirməkdə çətinlik çəkib.

Beləliklə, hazırda müsbət və mənfi gözləntilər arasındakı fərq +25%-dir, yəni cəmiyyət arasında müsbət baxışlar üstünlük təşkil edir.

**❑ Musavat.com**

# Rusiyanın müəmmalı susqunluğu - Bakıya cavab niyə gecikir?

## Elçin Mirzəbəyli: "Valuyev kimi şəxslərin parlamentdə təmsil olunması Rusiya üçün ayıbdır"

**Xəbər verildiyi kimi, Azərbaycan XİN Rusiyada saxlanılan və ölkəmizə qaytarılan deputat Azər Badamovla bağlı açıqlama verib. Bəyanatda bildirilib ki, rəsmi Bakı "Rusiya tərəfindən tutarlı izahat gözləyir və bunu qeyri-dost addım kimi qiymətləndirir".**

TASS agentliyinə danışan mənbənin sözlərinə görə, Azər Badamova Rusiya Federasiyasına giriş və çıxış qaydaları haqqında federal qanunun 26 və 27-ci maddələrinə əsasən qadağa qoyulub:

"Qadağanın səbəbi onun dəfələrlə səsləndirdiyi anti-Rusiya və rusofob yönlü açıqlamalardır", - deyə mənbə bildirib.

Qeyd edək ki, Badamov bundan əvvəl rusiyalı deputat Nikolay Valuyevin azərbaycanlılara qarşı söylədiyi həqarət dolu fikirlərə cavab verib.

**Milli Məclisin deputatı Elçin Mirzəbəyli** "Yeni Müsavat"a mövzunu şərh edərkən deputat həmkarına qarşı sərgilənən davranışın heç bir siyasi və diplomatik etik normalara sığmadığını bildirdi və bunu Vyana konvensiyasının kobud şəkildə pozulması kimi dəyərləndirdi. E.Mirzəbəyli vurğuladı ki, Azər Badamovun tədbirdə iştirakı nəzərdə tutulmuşdu və rəsmi dəvət gəlmişdi: "Dəvət göndərildiyi halda, nümayəndə heyətinin üzvünün ölkəyə buraxılmaması ciddi etika pozuntusudur. Odur ki, bu hadisə ilə bağlı izahat verilməlidir. Bu məsələyə əda ilə yanaşmaq yolverilməzdir. Əgər Rusiya Azərbaycanla münasibətlərə önəm verirsə, bu qəbildən olan davranışlar imzalanmış bütün sənədlərin statusunu zədələyir. Ölkələr arasında çoxsaylı müqavilələr imzalanıb. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə"nin prinsiplərində qarşılıqlı münasibətlərin inkişafı ilə bağlı çoxsaylı istiqamətlər nəzərdə tutulub. Odur ki, belə davranışlar sənədlərin statusunu zədələməklə yanaşı, Azərbaycan cəmiyyətinə də çox ciddi mesaj verir. Qarşılıqlı münasibətlərin inkişafı üçün Azərbaycan dövləti bu günə qədər bütün mümkün vasitələrdən istifadə edib. Rusiya yaxın qonşumuzdur, xalq olaraq düşüncə tərzimiz, tolerantlığımız digər xalqlara münasibətdə hörməti saxlamağımız üçün zəmin yaradır. Bu, bizim mental xüsusiyyətimizdir. Bu xüsusiyyəti dövlətimiz uğurlu siyasətin tərkib hissəsinə çevirib. Təəssüf ki, bəzən yanaşmalarda biz bunun əksini görürük. Bu mövzu ilə bağlı da susqunluq davam edəcəksə, bu, Azərbaycan cəmiyyətinə verilən növbəti neqativ mesaj kimi dəyərləndiriləcək. Rusiyaya münasibətdə ictimai rəy bundan da nəticə çıxaracaq".



Azər Badamov

**E.Mirzəbəyli qeyd etdi ki, bu qəbildən olan yanaşmalarda münasibətin ortaya qoyulması vacib faktorlardan biridir**: "Belə yanaşma ilə Rusiyanın nə böyük dövlət statusuna, nə yürütdüyü siyasətin mahiyyətinə hər hansı xələl gəlməyəcək. İnsanlar arasında olan münasibətlərdə olduğu kimi, dövlətlərarası münasibətlərdə də etik normalara əməl edilməsi dövlətin məsuliyyətinin, dövlət ərkanına nə qədər ciddi yanaşdığının nümunəsidir. Ümid edirik ki, Rusiya tərəfi Azər Badamovun ölkəyə buraxılmaması ilə bağlı açıq izahat verəcək. Əgər Azər Badamova sərgilənən yanaşma Azərbaycan xalqını təhqir edən Nikolay Valuyevə münasibətlə bağlıdırsa, bu, ikiqat ayıbdır. Azərbaycan xalqının mənafeyini, qürurunu, şərəfini müdafiə etmək bütün digər xalqların nümayəndələrində olduğu kimi, Azərbaycan vətəndaşının da, deputatın da borcudur. Şəxsən mən və digərləri də bu məsələ ilə bağlı açıq mövqe bildirmişik. Heç kim xalqımızla aşağılayıcı tərzdə danışa, jarqon ifadələr səsləndirə bilməz. Jarqon ifadələrdən istifadə edən Valuyev kimi şəxslərin parlamentdə təmsil olunması Rusiya üçün ayıbdır. Mən bu tip adamların dili ilə Azərbaycan və onun vətəndaşları ilə danışmaq üslubunun yanlış olduğu qənaətindəyəm. Qarşılıqlı münasibətlərin normal inkişafı üçün Azərbaycan tərəfi öz üzərinə düşəndən daha artığını etdiyi kimi, Rusiya da ən azı dövlət ərkanını, dövlətlərarası münasibətlərdə siyasi, diplomatik əxlaq prinsiplərinin qorunmasının zəruriliyini dərk edərək müvafiq addımlar atmalıdır".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# Tramp bu "açarı" keçmiş rəqibinə verdi - Azərbaycan üçün önəmi

## ABŞ "Tiflis kartı"na üz tutur; sabiq deputat: "Birləşmiş Ştatlar Zəngəzur dəhlizinin açılması üçün Ermənistana təzyiqləri artıracaq"

**ABŞ-da son 50 ildə ilk dəfə eyni şəxs həm ölkə diplomatiyasına, həm də təhlükəsizliyinə rəhbərlik edəcək.**

"Politico"nun xəbərinə görə, Ağ Evin üç yüksək rütbəli məmuru Marko Rubionun ən azı 6 ay həm dövlət katibi, həm də milli təhlükəsizlik üzrə müşavir vəzifələrində çalışacağını bildirib.

Mənbələrə görə, prezident Donald Trampın bir neçə müşaviri Rubionun hər iki vəzifəni daimi əsasda tutmasında maraqlıdır. Onlardan biri qeyd edib ki, məmurun bu yaxınlarda təyinatı müvəqqəti tədbir kimi görünmür.

"Politico" hesab edir ki, bu təyinat Trampın 2016-cı il praymerizlərindəki keçmiş rəqibi Marko Rubio üçün əhəmiyyətli təkan olub. O vaxt Rubio Trampa şəxsi müstəvidə kəskin hücumlar etmişdi...



Deyirlər, siyasətdə daimi dostlar yox, daimi maraqlar olur. Rubio Trampın etibarını nə dərəcədə doğruldacaq? İki strateji postu eyni şəxsin tutması konkret olaraq Güney Qafqaza, Azərbaycana, Azərbaycan-Ermənistan danışıqlarına nə vəd edir?

**Keçmiş millət vəkili Sona Əliyeva Tramp administrasiyasının gələcəkdə gözlənilə biləcək siyasətindən söz açdı**: "Marko Rubionun yarım il ərzində həm dövlət katibi, həm də milli təhlükəsizlik müşaviri kimi fəaliyyət göstərməsi ilə bağlı yayılan xəbərlərə dair deyə bilərik ki, əgər bu baş verərsə, o zaman Tramp administrasiyası daha sxematik və funksional fəaliyyət göstərəcək. Yəni Tramp Amerikası qarşıdakı dörd il ərzində geosiyasi strateji xətti vahid əldə cəmləşdirmək, bununla da mobilliyi və operativliyi artırmaq niyyətindədir. Eyni zamanda Amerika üçün taleyüklü məsələlərlə bağlı məxfi məlumatların qorunma radiusunu bir qədər məhdudlaşdırmaq istəyirlər. Hadisələrin axarı onu göstərir ki, qarşıdakı dörd il ərzində Tramp Amerikası bütün regional savaşları bitirərək diqqəti Çinə yönəltmək və bu istiqamətdə fəaliyyətdə qeyd-şərtsiz baş aktor olmağa çalışır. Marko Rubio qarşıdakı altı ay ərzində Orta Asiyaya fokuslanmağa cəhd göstərəcək. Oradakı dövlətləri Çinin iqtisadi asılılığından qorumaq və türk ölkələrini buna inandırmaq üçün "Şərqi Türküstana müstəqillik kartı"nı işə salacaq. Eyni zamanda Türkiyədən Orta Asiyaya uzanan və Zəngəzur dəhlizini də içərisinə alan bir yolun işləkliyini və intensivliyini artırmaq üçün Anadoluya və Güney Qafqaza səfərlər edəcək. Yəni Tramp Amerikasından gözlənilən siyasi xətt budur. Güney Qafqazda hələlik bir qədər arxa planda qalacaq ölkə Gürcüstandır. Vaşinqton "Tiflis kartı"nı hər zaman Moskvaya qarşı istifadə edib. Hələlik Birləşmiş Ştatlar Rusiyaya qarşı genişmiqyaslı həmlələr baxımından "taym-aut" götürüb. Çox güman ki, gələcək perspektivləri nəzərə alaraq Birləşmiş Ştatlar yuxarıda sadalanan amilləri nəzərə alaraq Zəngəzur dəhlizinin açılması üçün Ermənistana təzyiqləri artıracaq. Eyni zamanda İran məsələsi də ABŞ üçün aktual və açıq qalan məsələdir. İran məsələsində də Ermənistanın platsdarm rolunu oynaması ehtimalı az deyil. Bir sözlə, qarşıdakı altı ay ərzində Rubionun Güney Qafqaz dəftəri bir çox punktlarla zəngin olacaq".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev hesab edir ki, ABŞ Prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri olmuş Maykl Uoults kifayət qədər ciddi siyasətçidir və respublikaçılar arasında böyük nüfuzu var:** "Onun istefaya getməsinin əsas səbəbini Ağ Ev rəsmilərinin məxfi məsələləri müzakirə etdikləri internet qrupuna səhvən Demokratlara yaxın bir jurnalisti əlavə etməsi ilə əlaqələndirsələr də, hesab edirəm ki, əsas səbəb bu deyil. O, Respublikaçıların "şahin" qanadına malik bir siyasətçidir. Çox zaman da fikirlərini, düşündüklərini açıq söyləyən birisidir. Eyni zamanda indiyədək ölkə prezidenti olmaqla bağlı iddiaları da olmayıb. Görünür, hazırda vəziyyət o haldadır ki, onun digər sahədə fəaliyyəti daha məqsədəuyğun hesab olunub və özü də bununla razılaşıb. Marko Rubio isə prezidentliyə iddiası olmuş və bu gün də o fikrindən geri çəkilməmiş bir siyasətçidir. Hazırda həm də milli təhlükəsizlik məsələləri üzrə müşavir vəzifəsini ilkin olaraq 6 aylıq daşıması onun bu istiqamətdə karyerasına ciddi təkan verə biləcək bir hadisədir. Növbəti prezident seçkilərində Tramp namizəd olmayacağı halda vitse-prezident Vensin namizəd olacağı ilə bağlı fikirlər dolaşırdı. Amma o da artıq sirr deyil ki, onun prezident olması ilə bağlı Respublikaçıların yüksək eşelonunda fərqli düşünənlər var. Hazırda iki vəzifəni daşımaqla və bunu layiqincə yerinə yetirəcəyi halda Marko Rubionun namizəd olacağı perspektivi daha şanslı görünür. Amma bu, Donald Trampın istəyindən asılı bir məsələ olacaq. 6 aydan sonra yeni müşavir təyin edə də bilər, müddəti uzada da bilər. Belə görünür ki, bu cür ssenarinin olması Trampı da qane edir. Rubionun zamanında Trampla rəqib olması, hətta ona hücumlar etməsi belə bir ssenarinin olması ehtimalları arxa plana atmır. Sonunda Rubio Donald Trampın müəyyənləşdirdiyi xətt üzrə fəaliyyət göstərəcəyi ilə dövlət katibi təyin olunanda razılaşıb. Digər tərəfdən, təcrübə göstərir ki, vaxtilə rəqib olan siyasətçilər sonradan eyni hədəflər uğrunda birgə mübarizə aparıblar. Düşünürəm ki, Marko Rubioya Donald Tramp inanır, iki vəzifəni daşımaqla onun səlahiyyətlərinin və nüfuzunun artmasından çəkinmir. O səbəbdən Rubio Cənubi Qafqazla bağlı Trampın siyasətini həyata keçirtməklə məşğul olacaq. Bu isə eyni zamanda Rusiya-Ukrayna məsələsinə yanaşmadan asılı olacaq. Bu siyasət hansı istiqamətdə olursa-olsun nəticədə Trampın müəyyənləşdirəcəyi siyasət olacaq. Hesab edirəm ki, fors-major hadisələr baş verməsə, böyük ehtimalla indiyədək olan yanaşmadan ciddi fərqlənəcək bir münasibətin şahidi olmayacağıq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# “Qarabağ Azərbaycandır” deyən şəxs XİN başçısı gətirilir

## Almaniya yeni baş diplomatın dövründə Bakıya qarşı yanlışını düzəldəcəkmi? - deputatdan gözlənti

**Almaniyanın xarici işlər naziri vəzifəsini tezliklə Yohan David Vadeful tutacaq. 62 yaşlı siyasətçi ölkənin yeni kansleri Fridrix Merzin yaxın silahdaşı hesab edilir. Sağ-mərkəzçi Xristian Demokrat İttifaqının (CDU) nümayəndəsi olan Vadeful Yaşıllar Partiyasından olan Annalena Berboku əvəz edəcək.**

“Yeni Müsavat” qeyd edir ki, Vadeful Azərbaycan üçün yad sima deyil. Vadeful Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri vəzifəsini tutub. O, bu vəzifədə bir neçə dəfə Azərbaycan rəsmiləri ilə bir araya gəlib. Deputat kimi ötən il Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevlə görüş keçirib.

O, Vətən müharibəsindən əvvəl dəfələrlə Qarabağın işğal olunmuş Azərbaycan ərazisi olduğunu bildirib. “Bir məsələ aydındır: Azərbaycan ərazisi Ermənistan tərəfindən qeyri-qanuni işğal edilib”, - o, Xocalı qırğınının 27-ci ildönümü münasibətilə simpoziumda söyləmişdi.

Modern.az-a açıqlamasında Milli Məclisin Azərbaycan-Almaniya Parlamentlərarası İşçi Qrupunun üzvü Azər Badamov bildirib ki, Yohan David Vadeful ədalətli siyasətçidir. Onun fikrincə, yeni XİN rəhbəri Almaniya-Azərbaycan münasibətlərinin inkişafına xidmət edən siyasi kursu dəstəkləyəcək.

Amma buna nə dərəcədə nail ola biləcək? Çünki 2 apreldə Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ölkəmizə səfəri ərəfəsində qalmaqal yaşanmışdı. O, Ermənistanda olarkən sosial media hesabında keçmiş qondarma rejimin əski parçasını paylaşmış, rəsmi Bakının etirazına səbəb olmuşdu. Sonra paylaşım silindi, üzrxahlıq edildi. Lakin alman prezident Bakıdan gedər-getməz ölkəsinin dövlət televiziyasında Qarabağın “mübahisəli ərazi” olduğu barədə süjet yayımlandı.

Bu baxımdan Almaniyanın yeni baş diplomatı ziddiyyətləri aradan qaldıra biləcəkmi?

**Azərbaycan-Almaniya Parlamentlərarası İşçi Qrupunun digər üzvü Elşad Musayev “Yeni Müsavat”a açıqlamasında Almaniyanın dünyada sayılıb-seçilən ölkələrdən biri olduğunu qeyd etdi. Onun sözlərinə görə, bu dövlət iqtisadi potensialı ilə Avropada liderdir:** “Azərbaycan da belə bir gücə malik ölkə ilə münasibətlərin inkişafında olmasında maraqlıdır. Almaniya Prezidenti də ölkəmizə səfər etmişdi. Əvvəlki xarici işlər nazirinin Ermənistandan yana çıxışları olub. Bu da bizi qane edə bilməzdi. İndi yeni xarici işlər nazirindən gözləntilərimiz var”.

**E.Musayev xatırladtı ki, alman nazirin Prezident İlham Əliyevlə ötən il Münxen Təhlükəsizlik Konfransı çərçivəsində görüşü də olub:** “Hər halda, belə bir diplomatın xarici işlər naziri olması ümidvericidir. Güman edirik ki, ələqələrin güclənməsinə töhfə verəcək. Bu günə qədər olan fəaliyyəti belə deməyə əsas verir”.

Onu da deyək ki, Xristian-Demokrat İttifaqının lideri Fridrix Merz Bundestaqda Almaniyanın yeni, 10-cu kansleri kimi and içib. Mərasimi “Phoenix” telekanalı yayımlayıb. “Alman xalqının rifahı naminə çalışacağıma, onun sərvətini artıracağıma, onu zərərlərdən qoruyacağıma, əsas Qanunu və federasiya qanunlarını qoruyacağıma, vəzifə borcumu vicdanla yerinə yetirəcəyimə və hər kəsə qarşı ədalətli olacağıma and içirəm. Qoy Tanrı mənə kömək olsun”, - deyə Merz bildirib.



Yohan David Vadeful

Onilliklər ərzində ilk dəfə olaraq Almaniyanın kansler və xarici işlər naziri postları yenidən bir partiyanın - sağ mərkəzçi Xristian Birlik İttifaqının əlində olacaq. Yeni kansler Fridrix Mertsin yaxın tərəfdaşı hesab olunan Vadeful 2009-cu ildən bəri Bundestaqın üzvüdür. Xristian Birlik İttifaqının parlament qrupunun vitse-prezidenti olaraq o, xarici siyasət və təhlükəsizlik məsələlərinə cavabdeh olub.

Avropa İttifaqının doqquz ölkəsi ilə strateji tərəfdaşlıq haqqında sənədin imzalanması göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir. Azərbaycan Avropa İttifaqının aparıcı ölkələrindən biri olan Almaniya ilə də fəal əməkdaşlığa malikdir. Azərbaycan və Almaniya arasında davamlı siyasi dialoq mövcuddur, iqtisadiyyat və humanitar sahələrində geniş əməkdaşlıq həyata keçirilir. Bir müddət əvvəl Almaniya Prezidenti Frank Valter Ştaynmayerin ölkəmizə rəsmi səfəri də əlaqələrimizin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Azərbaycana qarşı 9 may şantajı - Kremlə yaltaqlığın yeni forması

## Ermənilər indi də Putini aldatmaq istəyir: yeni yalanlar uydurmağa başlayıblar

**Ermənilər və onların bir sara havadarları zaman-zaman Azərbaycana böhtan atırlar ki, guya Qarabağda erməni abidələri dağıdılıb. Amma bunu sübut edən fakt ortaya qoya bilmirlər. Onlardan fərqli olaraq, Azərbaycan ermənilərə aid tikililərə toxunmur. Hərçənd onların heç biri qədim deyil. Bununla belə, erməni təbliğat maşını yalanlar üfürməkdə davam edir.**



Bu dəfə erməni mediası (nyus.am) uydurub ki, guya Azərbaycan Ağdərənin Vəng kəndində “1941-45-ci illər vətən müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni, "artsax" azadlıq müharibəsi qurbanlarının xatirəsini əbədiləşdirən xaçkarı və həlak olmuş azadlıq döyüşçülərinin heykəlləri olan xatirə divarını dağıdıb". Əlavə edilib ki, bu informasiya “artsax monu” feysbuk səhifəsində qeyd olunub.

Lakin bunun bir cəfəngiyyat olduğu məlumdur. Əvvəla, axtarış zamanı feysbukda “artsax monu” adlı səhifə çıxmır. İkincisi, bu yalanın məhz indiki ərəfədə tirajlanması təsadüfi deyil. Çünki nasizm üzərində qələbənin 80 illiyi yaxınlaşır, Rusiya lideri Azərbaycan Prezidentinə bu münasibətlə təbrik məktubu göndərib, dövlət başçısının da Moskvadakı paradda iştirakı gözlənilir. Belə bir vaxtda ermənilər Rusiyanın diqqətini cəlb etməyə, Azərbaycanı ləkələməyə çalışırlar.

Yeri gəlmişkən, müharibə canisi Vitali Balasanyan bu il nasist Almaniyası üzərində qələbənin 80-ci ildönümünü xatırladaraq, “erməni xalqının da böyük və ümumi qələbəyə öz qəhrəmanlıq töhfəsini verdiyini” və guya həmin müharibədə iştirak eləmiş hayların 90 min nəfərinin “artsax”dan olduğunu iddia edib. Halbuki o vaxt (1941-1945) Qarabağda uşaqlı-qadınlı-qocalı heç o qədər erməni yaşamayıb. O, bunu Putinə məktubunda qeyd etmişdi.

İndi isə bu ağ yalanın erməni mediasında işıqlandırılması ilə nəyə nail olmaq istəyirlər? Bu, Putinə yarınmaq deyilmi?

**Azad Vətən Partiyasının sədri Akif Nağı** “Yeni Müsavat”a bildirdi ki, ermənilər Qarabağdakı abidələrlə bağlı zaman-zaman siyasi möhtəkirlik edirlər. Beynəlxalq təşkilatlara yanlış məlumat verərək Azərbaycana qarşı qərəzli sənədlərin qəbul olunmasına çalışırlar. Bəzən bu istəklərinə nail də olurlar: “Əslində bəzi beynəlxalq təşkilatlar və mərkəzlər də ermənilərin bu yalanlarına uymağı özləri də istəyirlər. Çünki onların Azərbaycana qarşı qərəzli mövqeyi var, bəzilərinə erməni diasporu, erməni lobbisi təsir göstərir. Müstəqil siyasət həyata keçirən Azərbaycanı bu şəkildə ram eləməyə çalışırlar. Bir tərəfdən Qarabağdan ermənilərin zorla köçürüldüyü yalanını yayırlar, o biri tərəfdən Qarabağdakı erməni "tarixi abidələri"nin guya dağıdıldığı uydurmasını dünyaya car çəkirlər. Bir tarixçi kimi əminliklə deyirəm ki, Qarabağda tarixi erməni abidəsi yoxdur və heç zaman olmayıb. Çünki ermənilər o əraziyə Çar Rusiyası tərəfindən 19-cu əsrdə köçürülüblər. O zamana qədər Qarabağda heç vaxt erməni yaşamayıb. Qarabağda ermənini millətinin tarixən yaşadığını təsdiqləyən bir dənə də olsun tarixi fakt, dəlil, abidə, qəbir və digər sübutlar yoxdur. Qarabağdakı alban xristian abidələrini ermənilər xislətlərinə uyğun olaraq erməni abidələri kimi təqdim edirlər. Həmin abidələri isə Azərbaycan dövlət səviyyəsində qoruyur və bərpası işlərini həyata keçirir".

**A.Nağı vurğuladı ki, ermənilər əllərində abidələrin dağıdılmasını əks etdirən bir dənə də olsun fakt olmadan yalan danışırlar. 1941-1945-ci il müharibəsi ilə bağlı qurulmuş abidəyə də Azərbaycan heç bir zərər vurmayıb:** “Azərbaycan xalqına, dövlətinə qarşı cinayətlər, qətliamlar, vandallıqlar həyata keçirmiş erməni quldurlara qurduqları bədnam "abidələr" isə təbii ki, dağıdılmalıdır. Çünki həmin quldurların etdikləri cinayətlər II Dünya müharibəsində nasistlərin etdiklərindən də betər cinayətlər olub. İnsanlıq əleyhinə cinayətlər törətmiş quldurlara abidə ucaltmaları ermənilərin faşist düşüncəli olduğunun bir sübutudur. O qədər həyasızlaşıblar ki, Putini də aldatmağa çalışırlar. Vitali Balasanyan Putinə müraciətində II Dünya müharibəsində ölmüş 90 min ermənininin Qarabağda yaşayan ermənilər olduğunu yazır, eyni zamanda Azərbaycana qarşı işğalçılıq müharibəsində insanlıq əleyhinə cinayətlər törətmiş erməniləri İkinci Dünya müharibəsində faşizmə qarşı döyüşmüş insanlarla eyniləşdirir. Öz aləmlərində Putini aldadacaqlarını zənn edirlər".

**Həmsöhbətimiz dedi ki, Azərbaycan hərbi canilərə ucaldılmış hər hansı “abidə”ni öz ərazisində saxlaya bilməz. Bunu hər kəs bilməlidir:** “Müəyyən məsələlərdə Azərbaycan tolerantlıq nümayiş etdirir. Ancaq hesab edirəm ki, bu məsələdə tolerantlığa yer ola bilməz”.

**Akif Nağı onu da qeyd etdi ki, Xocalı canisi Serj Sərkisyanın bu yaxınlarda verdiyi müsahibədə Qarabağa getmək şansı olsaydı birinci valideynlərinin və dostlarının məzarlarını ziyarət edəcəyini söyləməsi əslində ermənilərin “Qarabağda abidələrimiz, qəbirlərimiz dağıdılır” vay-şivəninin tamamilə əsassız olduğunu dolayısı ilə ifşa etmiş olur:** "Deməli, Serj Sərkisyan kimi hərbi cani azərbaycanlıların abidələri və qəbirləri dağıtmadığına əmindir, bilir ki, Azərbaycan tolerantdır və ermənilərdən fərqli olaraq heç vaxt abidələri, qəbirləri dağıtmaq və yer üzündən silmək kimi vandallıqla məşğul olmurlar. Yəni Sərkisyan əmindir ki, onun kimi quldura yetişdirmiş valideynlərinin və hərbi cani olan dostlarının qəbirləri salamatdır. Ancaq Serj Sərkisyan Qarabağa ayaq basmaq haqqını itirib. O özü də etiraf edib ki, Xocalı soyqırımının təşkilində şəxsən iştirak edib. Bu cinayəti onun Azərbaycan torpağına ayaq basmaq hüququnun olmadığını deməyimiz üçün kifayətdir. Sərkisyan və Balasanyan kimi kimi canilər bundan sonra Azərbaycan torpağına ancaq əli qandallı məhbus kimi ayaq basa bilərlər".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 79 (8689) 8 may 2025



# Naxçıvanda etirazçı hakim

Zamin HACI
zaminhaci@gmail.com

**Pakistanla Hindistan arasında savaşın başlanması uca millətimizdə bir qədər koqnitiv dissonans əhval-ruhiyyəsi yaradır. Çünki əski zamanlara qalsa, gərək Hindistanın tərəfini tutaq, axı Ciminin, Şakanın, Qabbarsinqhin, nə bilim, Zitanın xalasının filmləri ilə böyüyüb boya-başa çatmışıq. Axtarsan, Azərbaycanda elə bir kənd, el-oba yoxdur ki, orada minimum 1 nəfər "Rac", "Amit", "İndira" olmasın.**

Eyni zamanda müstəqillik dövrümüzdə həmişə Pakistandan dəstək görmüşük. Həm siyasi arenada, həm savaş arenalarında. Ona görə də geopolitik vəziyyət tələb edir ki, Pakistanı dəstəkləyək. Təklif edirəm, xüsusilə içərişəhərlilərdən ibarət tabor yaradılsın, Kəşmir-Pəncab bölgəsinə göndərilsin. Niyə onlar? Bunun səbəbi var. Qədim zamanlarda İçərişəhərin hazırkı Pakistanla əlaqələri güclü olmuşdur. Hətta İçərişəhərdə bu dəqiqə Moltanı karvansarası qalmaqdadır, onu 14-cü əsrdə Pəncabdan, Multan şəhərindən gələn ziyarətçilər yaratmışdır. Ana dilimizdə kiməsə qarşı işlənən "moltanı" ifadəsi oradan qalmadır.

Tarixi proseslərin siyasətdə, dünyanın axarında təsiri qaçılmazdır. Elə bu günlərdə Naxçıvan vilayətində şok hadisənin şahidi olduq: məhkəmə hakimi özü-özünə etiraz vermişdi.

Təsəvvür edin. Hansısa iş gəlir hakimin masasına, o da baxır, deyir, yox, üzrlü sayın, mən filan-filan səbəblər üzündən bu cinayət işinin məhkəmə istintaqını, araşdırmasını apara bilmərəm. Guya bu işin hakimin şəxsiyyəti ilə hansısa əlaqəsi varmış. Hakim və şəxsiyyət - ciddi dilemmadır. Lakin indi mövzumuz bu deyil. Tez yazını bitirməliyik, Kəşmirə Azadlıq meydanından avtobus çıxır. Mövzu şəxsiyyətin tarixə təsiridir.

Vasif Talıbov orada rəhbər işləyəndə belə faktı təsəvvür edərdinizmi? Həmin vaxt hakim nəinki hansısa işi aparmağa etiraz edə bilərdi, pis çıxmasın, hakimi yerə yıxıb ağzına-ağzına döyəydilər də dinməzdi. O dövrdə yerli hakimlərin leksikonunda etiraz sözü işlənmirdi. Bəlkə arada-bərədə işlənirdi, o da hansısa müxalifətçini şaqqalayıb şəhər darvazasından asmaq barədə prokurorun vəsatəti olardısa. Bu zaman hakimlər hərdən cəza tələbinin yüngüllüyünə etiraz edərdilər. Deyərdilər, əvvəlcə paz çalıb, sonra şaqqalamaq lazımdır. Əlbəttə, bunlar hamısı prosedur qaydalar idi, məcəllədə nəzərdə tutulmuşdu. Qanunsuz heç nə baş vermirdi, verə də bilməzdi.

Qayıdaq geopolitikaya. Yəməndəki husi qəbilələri təzəlikcə İsrailə raket atmışdılar, qəribədir ki, həmin raketi nə Amerikanın, nə İsrailin hava hücumundan müdafiə sistemləri tutmamışdı. Raket vıyıltıyla gedib hava limanının böyrünə çaxılmışdı. Bütün dünya bu vəziyyətə çox təəccüb elədi, çünki hamımız "Dəmir günbəz" qoruma sistemi haqda əfsanələrlə böyümüşük. Deyirdilər, İsrailin hava müdafiəsini quş da keçmir. Amma husilər - görkəmcə orta əsrlər qəbilə quruluşlarından fərqlənməyən silahlı dəstələr bu səddi bıçaq yağı kəsən kimi kəsib keçmişdilər. Niyə belə olmuşdur? Məncə, səbəb təkcə insan faktoru deyildir. Mürəkkəb sistemlərin çatışmazlığı bəzən sadə səbəblərə dayanıqsız olmasıdır. Sən nəhəng bənd düzəldərsən, lakin onun dibindən bir siçan yol eləyər, su sızar, axırda bənd uçar.

Sözü ona gətirirəm ki, Naxçıvanda özü-özünə etiraz edən hakimin məsələsi ciddi nəzarətə götürülməlidir, lazımi, əlaqədar orqanlar istintaq aparmalıdır. Özün özünlə fəxr etmək, qürur duymaq, yeniləşən Azərbaycan, daha da yeniləşən Naxçıvan qurmaq yolunda iri addımlar atmaq yerinə, nə üçün özünə etiraz edirsən? Nəyin çatışmır axı?

İndi söz əlaqədar təşkilatlarındır.

***P.S.*** *Mən bu yazıda şəxsən özüm özümdən, türkün məsəli, zövq aldım. Niyə özümə etiraz edim? Hamımız da belə olmalıyıq.*



# Putin müharibə taktikasını dəyişir? - 9 maydan sonra...

**"Rusiya Prezidenti Vladimir Putin çox güman ki, Ukraynaya qarşı müharibədə strateji hədəflərini dəyişib. İndi o, ələ keçirilən ərazilərə qısamüddətli nəzarətə və Rusiya iqtisadiyyatını sabitləşdirməyə fokuslanıb".**

Bu barədə CNN Qərb kəşfiyyatındakı və Amerika rəsmiləri arasında olan mənbələrə istinadla xəbər verir.

Yeni kəşfiyyat məlumatlarına görə, Putin artıq böyük hərbi uğurlar gözləmir və işğal olunmuş torpaqlarda siyasi və hərbi mövcudluğunu gücləndirməyə çalışır. Bundan əlavə, mənbələr qeyd edir ki, Kreml sanksiyalar və hərbi xərclərin təzyiqi altında olan iqtisadiyyatın stimullaşdırılmasına "stavka" edir.

Kreml həqiqətənmi Ukraynaya qarşı müharibə taktikasını dəyişir və diqqəti daha çox iqtisadi problemlərə yönəldir?

**Siyasi şərhçi Heydər Oğuz** "Yeni Müsavat"a deyib ki, Putinin heç bir ciddi və qalıcı uğur qazanmadan müharibədən əl çəkəcəyinə inanmır: "Bilirsiniz ki, 2022-ci ilin 24 fevralında rus ordusu Ukraynaya müdaxilə edəndə Putin öz qarşısına bir neçə hədəf qoymuşdu. Əvvəla, Ukrayna NATO sıralarına daxil olmamalı, ikincisi, rəsmi Kiyev milli kadrlardan imtina etməli və köhnə rus qafalıları hakimiyyətə gətirməli idi. Bundan əlavə, rus dili Ukraynanın dövlət dili səviyyəsinə yüksəldilməli, bir sözlə, bütün sahələrdə Kremlin boyunduruğu altına girməli idi. Putin Ukraynada qazanacağı bu uğurdan həvəslənib keçmiş postsovet ölkələri də caynağı altına salıb rus imperiyasını bərpa etməyi, hətta Şərqi Avropa ölkələrini belə, himayəsi altına almalı idi. O gündən indiyədək 3 ildən çox zaman keçir. Bu müddət ərzində Putin nəinki öz arzularına nail ola bilmədi, əksinə, demək olar ki, bütün sahələrdə daha çox məğlubiyyətlə qarşılaşdı. Ukrayna getdikcə Rusiyadan uzaqlaşdı, Kremlin dünyada heç bir etibarı qalmadı, Ukrayna rəsmən olmasa belə, faktiki olaraq NATO-nun çətiri altına girdi, Finlandiya və İsveç kimi bitərəf olkələr belə Şimali Atlantika alyansına qoşuldu, beləcə Moskvanın ən çox qorxduğu düşməni Rusiyanın tam sərhədinə dayandı. NATO-nun sabiq baş katibi Yens Stoltenberqin sözü ilə desək, müharibədən əvvəl dünyanın ikinci ordusu kimi görünən Rusiya müharibə başladıqdan sonra Ukrayna ərazisindəki ikinci orduya çevrildi. İş o yerə çatdı ki, hətta düz-əməlli ordusu olmayan Baltikyanı ölkələr belə Kremlə barmaq silkələməyə başladılar. Rusiyanın iqtisadiyyatı da xeyli zəiflədi, Avropa ilə bütün əlaqələri kəsildi və I Pyotrun ən böyük hədəflərindən biri olan Qərbə açılış strategiyası da tarixin arxivinə göndərildi. İndi Rusiya Çin, Hindistan kimi Asiya ölkələrinin ümidinə qalmış vəziyyətdədir. Cəbhə xəttində də 1 milyona yaxın canlı itkilərlə üzləşən Rusiya bu qədər ağır durumla üzləşdiyi bir zamanda Putinin özünü əsaslandırmaq üçün qələbə hekayəsinə ehtiyacı var. Ona isə bu qələbə sevincini vermirlər. Hətta ən ruspərəst dünya aktorları belə, işğal etdiyi əraziləri de-yure tanımayacaqları, sadəcə, de-fakto durumla razılaşmağı şərt qoşurlar. Bu isə Ukraynaya özünü toparladıqdan sonra yenidən müharibəyə başlamaq şansı vermək deməkdir. Təbii ki, Putinin bu "Pirr qələbəsi" ilə razılaşmaq kimi bir niyyəti yoxdur və ola bilməz də. Belə bir vəziyyətdə Putinin reallıqlarla razılaşıb öz hərbi strategiyasını dəyişdirməsinə bel bağlamaq mümkün deyil".

**Heydər Oğuzun fikrincə, Rusiya nə qədər canlı itki verirsə-versin, müharibədən vaz keçməyəcək**: "Məlumdur ki, Rusiyada insan faktoru heç bir anlam ifadə etmir. Bu o ölkədir ki, II Dünya savaşında 26 milyon vətəndaşını itirsə də, Berlinə qədər getməyi bacarmışdı. Əlində imkanı olsa, yenə də öz gənclərini NATO silahlarına yem edər və "qələbə qazandım" eyforiyasına qapılar. Onu bu müharibədən çəkindirəcək yeganə güc iqtisadi tənəzzül yaşamasıdır. Vaxtilə özüylə müqayisə olunmayacaq qədər zəif olan Əfqanıstandan məhz bu iqtisadi tənəzzül nəticəsində ayrılmışdı. O zaman neftin qiymətləri kəskin şəkildə düşmüş, dərin iqtisadi sarsıntı keçirən SSRİ/Rusiya faktiki olaraq ərzaq qıtlığı ilə üzləşmişdi. Döyüşü davam etdirməyə gücü çatmadığını anladıqdan sonra isə suyu süzülə-süzülə Əfqanıstandan çıxmışdı".

**Siyasi şərhçinin fikrincə, hazırda Rusiyanın bu cür ölümcül iqtisadi böhran keçirməsinin qarşısını Çin və Hindistan kimi Asiya nəhəngləri alır:** "Onlar Rusiyanın Avropaya sata bilmədiyi təbii sərvətləri yarı qiymətinə alıb onu ayaqda tutmağa çalışırlar. Sözsüz ki, burada həmin dövlətlərin öz məkrli məqsədləri də var. Əvvəla, özlərini gözləyən eyni təhlükədən yayınmaq üçün Rusiyanı qabağa verirlər. Bir növ ondan proksi qüvvə kimi istifadə edirlər. Beləcə, Rusiya ilə yanaşı, Qərb dövlətlərini də zəiflədirlər və nəticədə Moskvanın təsiri altında olan Orta Asiya ölkələrini öz təsir dairələri içinə salırlar. İkincisi, Rusiyanın təbii sərvətlərini ucuz qiymətə alıb öz sənaye müəssisələrinin istehsalını artırır, bu yolla dünya ağalığına can atırlar. Bu baxımdan, Rusiyanın ağır məğlubiyyətlə razılaşması Çin və Hindistanın ona qarşı sanksiyalara qoşulmasından keçir. Fikrimcə, son zamanlar Hindistan və Pakistan arasında yaşanan gərginliyin də əsas səbəblərindən biri buna nail olmaq istəyidir. Zira, Hindistanla Pakistan arasında müharibənin çıxması istər-istəməz Çini də proseslərə müdaxiləyə məcbur edə və beləcə, Asiyanın iki nəhəngi Pakistanda qarşı-qarşıya gələ bilər. Başları özlərinə qarışan Çin və Hindistan Rusiyanı istədikləri kimi dəstəkləmək imkanını itirərlər".

**Heydər Oğuz hesab edir ki, ABŞ bir tərəfdən Rusiya və Ukrayna, digər tərəfdən Çin-Pakistan-Hindistan müharibəsini qızışdırmaqla bir daşla iki quş vurmağa çalışacaq:** "Rusiyanın digər müttəfiqi İranı da regional dövlətlərlə, xüsusilə də ərəb ölkələri ilə münaqişəyə cəlb etsələr, qurmaq istədikləri yeni paradiqmanı tam mənası ilə yarada biləcəklər. Odur ki, Pakistan və Hindistandan sonra növbəti gərginlik ocağını mən cənubdan gözləyirəm".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Əliyevlə Paşinyanı o görüşdürəcək? - Bakıdan reaksiya

## İran vasitəçilik etmək istəyinə düşüb; Bakıdan təşəkkür, lakin...

**“İran Bakı ilə İrəvan arasında sülh müqaviləsinin mətni ilə bağlı əldə edilmiş razılaşmanı dəstəkləyir”. Bu barədə İran xarici işlər nazirinin müavini Səid Xətibzadə açıqlama verib. Onun sözlərinə görə, İran Prezidenti Məsud Pezeşkian Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması prosesində vasitəçi rolunu öz üzərinə götürə bilər. “Düşünürəm ki, bu məsələ iki ölkə arasında gündəlik təmaslarda da öz əksini tapacaq”, - Xətibzadə əlavə edib.**

Lakin Bakı İrəvanla ikitərəfli danışıqlara üstünlük verir. Hazırda vasitəçiyə ehtiyac yoxdur. İranın isə moderator kimi obyektivliyi şübhə doğurur. Bəli, prezident Pezeşkian səmimi ola bilər və sülhün tərəfdarıdır, lakin İrandakı mövcud siyasi sistemin Azərbaycana baxışında fundamental dəyişiklik olmayıb.

Üstəgəl, nə Tehran, nə Moskva, nə Brüssel, nə də Vaşinqtonun vasitəçiliyinə ehtiyac yoxdur. Bizim işimizə müdaxilə etməsinlər, yetərlidir. Hər halda, İrandan belə bir təşəbbüs səslənir.

Azərbaycan Pezeşkianın vasitəçiliyinə necə baxır? İranın vasitəçiliyi mümkün ola bilərmi?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** “Yeni Müsavat”a bildirdi ki, İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana uğurlu səfərindən sonra Tehran Cənubi Qafqazda öz siyasi, diplomatik mövqeyini möhkəmləndirmək niyyətindədir. Bu baxımdan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması tərəflər arasında görüşlərin keçirilməsi, etimadın formalaşması yönündə moderator funksiyalarını üzərinə götürmək istəyir: “Lakin burada hesab edirəm ki, heç bir vasitəçiliyə ehtiyac yoxdur. Bu gün Bakı və İrəvan arasında birbaşa dialoq mövcuddur, uğurla həyata keçirilir. Bir sıra çətinliklər olsa da Azərbaycanla Ermənistan arasında sülhün mümkünlüyü, təhlükəsizliyin inkişafı haqqında qəti mövqe var. Əvvəlki dövrlərdə Avropa İttifaqı ilə Rusiya və ABŞ arasında vasitəçilik uğrunda mübarizəni görürdüksə, bu gün buna ehtiyac yoxdur. Bakı və İrəvan da yaxşı anlayır ki, hər bir vasitəçi öz maraqları kontekstində masa arxasına əyləşir və öz maraqlarını güdür. Bizim ATƏT-in Minsk Qrupunun vasitəçiliyi kimi acı təcrübəmiz də var. O dövrdə Fransa, Rusiya və ABŞ öz maraqları müstəvisində Ermənistan-Azərbaycan münaqişəsinin guya həllinə çalışırdılar. Bu gün isə yeni geopolitik reallıqlarda şərtlər, məqsədlər, üsul və vasitələr dəyişib”.

**Ekspert vurğuladı ki, hazırda biz Bakı və İrəvan arasında birbaşa dialoq vasitəsilə müəyyən uğurlu nəticələrin əldə edildiyini qeyd edə bilərik:** “Qazağın 4 kəndinin Azərbaycana qaytarılması, COP29 tədbirinin keçirilməsi ilə bağlı razılaşmaların nəticələri, sərhəddə baş nazirlərin müavinləri səviyyəsində məhsuldar görüşlər, sərhədlərin delimitasiyası ilə bağlı əsasnamənin razılaşdırılması və qəbuli, sülh sazişi mətninin demək olar razılaşdırılması kimi nəticələr mövcuddur. Bu cür diplomatik treki kənardan müdaxilə edib məhv etmək doğru olmaz. İrana əlbəttə ki, vasitəçilik təşəbbüsünü irəli sürdüyünə görə təşəkkür edə bilərik. Lakin birbaşa dialoq dediyimiz kimi daha effektlidir. Bütün geopolitik mərkəzlər yaxşı olar ki, birbaşa dialoqa dəstək versinlər”.



**Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, prezident Pezeşkianın Bakıya səfəri zamanı vasitəçilik təklifini irəli sürdüyü istisna deyil:** “İranın xarici işlər nazirinin müavini Səid Xətibzadə Pezeşkianın Azərbaycan və Ermənistan sülh sazişinin imzalanmasında vasitəçi ola biləcəyini deyib. Mümkündür ki, Pezeşkian da Bakı səfərində bu təklifi irəli sürüb. Tehranın vasitəçilik istəyinin iki hədəfi var:

Birincisi, Cənubi Qafqazda mövqelərini gücləndirmək: digər oyunçular kimi İran da regionda gələcək güc balansını Bakı-İrəvan sülh sazişinin müəyyən edəcəyini anlayır və prosesdən kənarda qalmaq istəmir;

İkincisi, İrəvanın mövqeyinə yaxın olan gündəliyini - sərhədlərin dəyişməməsi, kommunikasiyanın dəhliz məntiqindən kənar açılması - qəbul etdirmək.

Lakin Tehranın Bakı və İrəvan arasında vasitəçi olması mümkün görünmür. Əvvəla, ona görə ki, Ermənistanın mövqeyini açıq şəkildə dəstəkləyən İranın neytrallığı sual altındadır. İkincisi, regionun gələcəyi, o cümlədən sülh sazişi ilə bağlı gündəliyi Azərbaycanın gündəliyi ilə kəsişir. Üçüncüsü, hazırda İran Bakı ilə münasibətlərin normallaşması siyasətini izləsə də, 44 günlük müharibədən sonra açıq müstəviyə keçən mövqeyi - Zəngəzur dəhlizinin “qırmızı xətti” olması dəyişməyib. Dördüncüsü, İranın sülh sazişində vasitəçilik etməsi regionda maraqları olan digər oyunçuları - Rusiya, Avropa İttifaqı və ABŞ-ı da aktivləşdirəcək və bu, Bakı-İrəvan xəttində son seçim olan “ikitərəfli format”a ziddir".

Ekspertin sözlərinə görə, Tehranda vasitəçiliyin qəbul edilməsinin çətin olduğunu anlayırlar, hərçənd bununla Ermənistana münasibətdə neytral olduqları mesajını verir və 2020-ci ildən sonra baş verənlərə görə Azərbaycanın mövqeyini yumşaltmağa çalışırlar.

❑ Etìbar SEYİDAĞA,
“Yenì Müsavat”

# Azərbaycanın edam etdirəcəyi azərbaycanlı - Tehran o qərarı yubatdıqca...

## İran rəsmisi Bakını əmin edir ki, səfirliyimizi terror edən Yasin Hüseynzadə barəsində hökm icra olunacaq, amma nə vaxt?

**“İranın məhkəmə hakimiyyətində hökmün icrası üçün zəruri prosedurların başa çatması lazımdır. Bu məsələ xüsusi şikayət əsasında tənzimlənir”. “Yeni Müsavat” qeyd edir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin (IPIS) rəhbəri, nazir müavini Səid Xətibzadə mayın 6-da Bakıda jurnalistlərə açıqlamasında bildirib.**

“Azərbaycanın səfirliyinə hücum acı bir hadisə idi. Bu hadisədən sonra həm polis, həm də məhkəmə hakimiyyəti tərəfindən çox geniş istintaq aparıldı. Baxmayaraq ki, bu acı hadisə idi, amma hər iki xalqın təmaslarını daha da yaxınlaşdırdı. Hər iki tərəf münasibətləri yenidən canlandırmaq üçün təşəbbüslər irəli sürdü. İranın məhkəmə hakimiyyətində hökmün icrası üçün zəruri prosedurların başa çatması lazımdır. Bu məsələ xüsusi şikayət əsasında tənzimlənir və Azərbaycanın İrandakı səfirliyi buununla maraqlanır. Əminəm ki, ədalət qələbəsini çalacaq və hökm icra olunacaq”, - Səid Xətibzadə Azərbaycanın Tehrandakı səfirliyinə hücum edən Yasin Hüseynzadənin barəsindəki hökmün icra olunmamasına münasibət bildirərkən deyib.

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri, nazir müavini Səid Xətibzadə ilə görüşüb. Görüş zamanı Azərbaycanla İran arasında ikitərəfli əməkdaşlıq və regional gündəlikdəki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Mərəndin Yuxarı Yekan kəndində anadan olan Yasin Hüseynzadə İran-İraq müharibəsi zamanı “SEPAH” sıralarına qatılıb. O, qısa müddət ərzində müharibədə 31-ci Aşura diviziyasında da iştirak edib. 1999-cu ilə qədər Təbrizdə “SEPAH” qərargahında yük maşını sürücüsü işləyib və oradan təqaüdə yollanıb.

Yasin 1999-2006-cı illərdə Mərənddəki Yaldur məscidinə bağlı “Bəsic” qüvvələrinin komandanı olub. O, indi də həmin “Bəsic” bazası ilə əlaqəsini davam etdirir. Hətta onun Təbrizdə “Bəsic” və “SEPAH” qüvvələri ilə birlikdə son aylar Bükan və Marağada baş verən antihökumət etirazlarının dağıdılmasında iştirak etdiyi barədə məlumatlar var.



Yasin Hüseynzadə barəsində çıxarılan edam hökmünə hadisə zamanı həyatını itirmiş Orxan Əsgərovun atası Rizvan Əsgərov bildirmişdi ki, ailə onun edam olunmasını tələb edir.

Bəs icra niyə bu qədər gecikir? Axı hadisə 2023-cü il yanvarın 27-də olub. Amma nə hikmətdirsə, hələ də edam hökmü icra olunmur. Əslində bu da yetərli deyil. Çünki İran istintaq orqanları terroru sifariş verənləri də üzə çıxarmalıydı. Lakin bunu etmədilər.

Hazırda isə Azərbaycan-İran əlaqələri axarına düşməkdədir. Xüsusən prezident Pezeşkianın səfəri münasibətlərə pozitiv rəng qatıb. Belə bir mərhələdə edam hökmünün icrası həyata keçirilməlidir ki, Bakı narazı qalmasın.

**Hüquqşünas Qulamhüseyn Əlibəylinin “Yeni Müsavat”a bildirdiyinə görə, Azərbaycan səfirliyinə silahlı hücum edərək səfirliyin əməkdaşı Orxan Əsgərovun qətlində təqsirli bilinən şəxsin haqqında çıxarılan edam cəzasının indiyədək icra olunmamasının səbəblərini bürokratik hüquqi prosedur məsələlərinin həll olunmamasında yox, siyasi motivlərdə axtarmaq lazımdır:** “Əlbəttə, hər bir ölkədə məhkəmənin çıxardığı ölüm cəzasının icrası müəyyən hüquqi prosedurları keçdikdən sonra yerinə yetirilir. İranda və bəzi digər müsəlman dövlətlərində isə həm də zərərçəkmiş şəxsin özünün və ya ailəsinin rəsmi razılığı tələb olunur. Hələ bu ilin yanvarında İran rəsmiləri formal hüquqi prosedurların hamısının keçildiyini və məhkəmə hökmünün tezliklə icra olunacağını elan etmişdilər. Mərhum Orxanın atası da edam cəzasının icra olunmasını tələb edərək bu prosesdə iştirak etmək üçün İrandakı vəkillərinə etibarnamə verdiklərini bildirmişdi. Yəni məhkəmənin çıxardığı edam cəzasının icra olunması üçün heç bir rəsmi formal maneə qalmayıb”.

**Q.Əlibəyli ona görə də hesab edir ki, edam cəzasının icra olunmaması daha çox İranın rəsmi hakimiyyət dairələrinin, ümumiyyətlə, Azərbaycan dövlətinə, konkret isə törədilmiş terror aktına siyasi münasibətidir:** “Rəsmi İran hakimiyyəti hələ də müstəqil Azərbaycan dövlətinin varlığı, onun bölgədə nüfuzunun artması və yeritdiyi siyasətlə barışa bilmir və fürsət düşdükcə özlərinin guya üstün olduqlarını nümayiş etdirməyə, yekəxanalıqla Azərbaycanı bir dövlət kimi aşağılamağa, ölkəmizin hakimiyyətinə və dövlət başçısına münasibətdə təhqiramiz hərəkətlər etməyə və ifadələr işlətməyə çalışırlar. Hətta bəziləri özlərini fars şovinizminin simvolu olan "şirin quyruğu" hesab edərək Azərbaycana qarşı ərazi iddialarını da vaxtaşırı dilə gətirirlər. Son vaxtlar bu münasibətin dəyişdirilməsi istiqamətində İran hakimiyyəti tərəfindən müəyyən cəhdlər müşahidə olunur. Xüsusən də İranın yeni prezidentinin belə cəhdləri müəyyən pozitiv gözləntilər yaratsa da, problemin köklü həlli üçün yetərli deyil".

**Q.Əlibəylinin fikrincə, məhz İran hakimiyyətinin Azərbaycan dövlətinə belə saymazyana münasibəti səfirliyimizə qarşı törədilən terror aktının mahiyyətinin süni şəkildə dəyişdirilərək adi məişət davası səviyyəsinə endirilməsi üçün bu dövlətin rəsmilərinin müxtəlif gülünc səbəblər göstərməsinə gətirib çıxarıb:** “Terror hücumundan dərhal sonra qatilin rəsmi informasiya vasitələrində az qala qəhrəman kimi qələmə verilməsi, sonra bunun adi məişət davası olması haqqında rəsmi versiya irəli sürülməsi, daha sonra terrorçunun guya psixi xəstə olduğu üçün müalicə müəssisəsində gizlədilməsi, indi isə çıxarılmış məhkəmə hökmünün icrasının müxtəlif bəhanələrlə yubadılması dediklərimizi təsdiq edir.

Bütün formal prosedurlar keçildikdən sonra da məhkəmə hökmünün icrasının süni şəkildə yubadılması İran hakimiyyətinin müəyyən dairələri tərəfindən bu məsələyə həm də Azərbaycanla bazarlıq predmeti kimi baxıldığını söyləmək üçün əsasdır. Belə ki, edam cəzasının icrası İrana casusluq etdiyinə, İranın müəyyən dairələrinin tapşırığı ilə terror aktları törətdiyinə və törədilməsinə hazırlığa görə ölkəmizdə məhkum olunmuş şəxslərin azad edilməsi məsələsi ilə əlaqələndirilə bilər. Xırda alverçi təfəkküründə olan hakimiyyət mənsublarından bundan artıq heç nə gözləmək olmaz".

❑ Emìl SALAMOĞLU,
“Yenì Müsavat”

# Nazirlərin "şişən" müşavirləri - israfçılığı durdurmağın yolu

**Azərbaycanda mərkəzi icra orqanı funksiyasını daşıyan dövlət qurumlarının rəhbərlərinə müşavir təyinatı sahəsində "canlanma" hiss olunmaqdadır: elə qurumlar var ki, rəhbərinin 4-5 müşaviri var.**

Qeyd edək ki, müşavir - məsləhətçi, məşvərətçi deməkdir. Müşavir xidmətindən istifadə dünyanın əksər ölkələrində mövcuddur. Əsasən dövlət rəhbərlərinin çoxsaylı müşavirləri olur. Bu təcrübə ABŞ-da geniş tətbiq olunur: prezidentin çoxsaylı məsələlər üzrə müşavirləri var. Həmin müşavirlərin kifayət qədər böyük heyətdən ibarət işçi aparatı, hətta öz müavinləri də var. ABŞ-da həmçinin dövlət katibinin, Pentaqon rəhbərinin də müşavirləri olur, onların da xeyli sayda işçidən ibarət aparatları fəaliyyət göstərir.

Nazirlik səviyyəsində çoxsaylı müşavir vəzifəsinin olduğu ölkələr də var. Lakin həmin ölkələrdə müşavirlərin sayı 3-dən yuxarı olmur. Azərbaycanda da xeyli müddət dövlət müşaviri vəzifəsi olub. Vəzifə uzun müddət boş qaldıqdan sonra 2017 ilin oktyabrında ləğv olunub.

Maraqlıdır ki, qanunvericilikdə müşavirlərin sayı barədə hansısa tələbə rast gəlinmir. Buna görə də nazirliklər, komitə və agentliklərdə rəhbərlərin çoxsaylı müşavirləri təyin edilir. Hətta elə qurumlar var ki, rəhbərdən əlavə, aparat rəhbərinin də müşaviri postu təsis edilib.

Son illərdə Azərbaycanda hansısa yüksək vəzifədən alınan şəxslərin digər qurumda müşavir postuna təyinatı praktikası geniş yayılıb. Bir agentlikdən, komitədən rəhbər vəzifədən çıxarılan şəxsi digər qurumun rəhbəri özünə müşavir təyin edir. Məsələn, bir neçə il əvvəl Mərkəzi Bankın İdarə Heyətinin sədri postundan çıxarılan Elman Rüstəmov baş nazirin müşaviri təyin edilib. Nazirlər Kabineti aparatının strukturuna baxsaq, baş nazirin müşaviri vəzifəsi sıralamada müavinlər, kabinetin bütün şöbə müdirlərindən sonra gəlir. Müşavir yalnız baş nazirin köməkçilərindən üstün vəzifə kimi təsnif edilib.

**Ölkə mətbuatında bu praktika tənqid olunur. Məsələn, "Bakı-Xəbər" qəzeti bildirir ki, müavinlik institutunu anlamaq olar, bəs müşavir postları nəyə görə yaradılır, bunların funkisiyası nədən ibarətdir:** "Nazirliyin və ya agentliyin aparatında bütün şöbələr varsa, orada müşaviri saxlamağın nə mənası var? Aparat varsa, müşavir nə iş görür və yaxud əksinə? Dövlət qulluğunda yüksək vəzifələrdən vurulanları son vaxtlar başlayıblar nazirliklərdə müşavir təyin etməyə. İllərlə nazir işləyən vəzifəli şəxsi pensiyaya çıxandan sonra kiməsə müşavir göndərirlər. Kifayət



qədər vəzifə tutmaq istəyən enerjili gənclərimiz var, vəzifə gözləyirlər. Əgər işləmək lazımdırsa, onları təyin edə bilərlər.

Niyə pensiyaçılara belə görəv verilməlidir? Sadəcə, həmin şəxslərə kabinet, pul, xidməti maşın verirlər, o da heç bir iş görmür, havayı maaş alır. Bu, israfçılıq deyilmi"?

**"Konstitusiya" Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev qəzetə bildirib ki, doğrudan da son dövrlər müşavirlərin sayı nazirlərin sayından dəfələrlə çox artıb, bu da cəmiyyətdə suallar doğurur**: "Mən onun tərəfdarıyam ki, dövlət idarəçiliyində varislik qırılmasın. Daha təcrübəli, başqa yüksək vəzifədə uzun müddət çalışmış insanlar bilik və bacarığını digərlərinə ötürməklə bir körpü rolunu oynasınlar. Bu baxımdan müşavirlər institutu uğurlu bir təsisatdır. Amma bu vəzifələrdə daha təcrübəli, bacarıqlı, qabiliyyətli, fəaliyyəti dövründə özünü sübut etmiş kadrlar olmalıdır. Bu həm də onların potensiallarından istifadə etmək üçün imkanlar yaradır".

Dövlət qurumlarının heç birinin internet saytında müşavirlərin hansı işə baxdığına dair məlumat yerləşdirilməyib. Lakin qanunvericiliyə nəzər salsaq, nazirlik, komitə, agentlik və digər dövlət qurumlarında müşavir təyinatı Nazirlər Kabinetinin 2017-ci ildə qəbul etdiyi "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"ndə nəzərdə tutulur. Həmin sənədə əsasən 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələr üzrə vəzifə təlimatları Nazirlər Kabinetinin müəyyən etdiyi Ümumi Şərtlərə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə razılaşdırmaqla, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən qəbul edilir. 1-5-ci kateqoriya dövlət orqanlarına mərkəzi icra hakimiyyəti funksiyalarını icra edən dövlət qurumları aiddir. Müşavir vəzifəsi isə inzibati vəzifələrin təsnifatında 4-cü kateqoriyaya daxil edilib.

Adıçəkilən sənəd müşavir vəzifəsi üçün təhsil və iş təcrübəsinə dair tələbləri müəyyən edir. Vəzifə təlimatlarını isə hər bir qurum DİM-lə razılaşdırmaqla təsdiqləyir. Məsələn, bir neçə il əvvəl DİM-lə razılaşdırılmaqla ekologiya və təbii sərvətlər nazirinin müavirinə qoyulan tələblər müəyyən olunub. Vəzifə təlimatları adlı sənədə əsasən müşavirin vəzifəsi nazirin həvalə etdiyi müvafiq sahəyə funksional nəzarəti həyata keçirmək; Nazirin həvalə etdiyi müvafiq sahənin inkişafı istiqamətində zəruri tədbirlər görmək; Müvafiq sahə üzrə nazirin xüsusi tapşırıqlarını yerinə yetirmək; Nazirliyin fəaliyyətinin istiqamətləri, prioritetlər və dövlət ekoloji siyasətinin əsas prinsipləri üzrə nazirin tapşırığı əsasında işlərin yerinə yetirilməsinə nəzarət etmək; Nazirin həvalə etdiyi sahələr üzrə mövcud vəziyyəti ümumiləşdirmək, onların fəaliyyətini təhlil etmək və mütəmadi olaraq nazirə məlumat vermək; Nazirin tapşırığı əsasında həvalə olunmuş sahələr üzrə işlərin yerinə yetirilməsinin forma və metodlarını, həmçinin normativ hüquqi əsaslandırmalarla bağlı təkliflər hazırlamaq; Qəbul edilmiş qərarlar üzrə gözlənilən pozitiv və neqativ nəticələr barədə naziri məlumatlandırmaq; Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnaməyə uyğun olaraq ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunmasına dair qrşıya qoyulmuş vəzifə və öhdəliklərin icrası ilə bağlı nazirə elmi metodiki köməklik göstərmək; Qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirməkdən ibarət olmalıdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri postuna vakant yerə verilən iş elanında da DİM-lə razılaşdırılmış tələblər qoyulub. Onlara əsasən müşavir Sədr tərəfindən verilən xüsusi tapşırıqların yerinə yetirilməsini təmin etmək; Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq onun inkişafı və təkmilləşdirilməsi ilə bağlı təklif vermək; Verilən tapşırıqların vaxtında və düzgün icra edilməsinə nəzarət etmək və yaranmış problemlər haqqında rəhbərliyə vaxtında məlumat vermək; Sədrin göstəriş və tapşırıqlarına müvafiq olaraq, Komitənin fəaliyyətinin müəyyən məsələləri üzrə materialların baxılmasında, öyrənilməsində və təhlilində iştirak etmək; Sədrin tapşırığı ilə Komitənin şöbələrinin və digər qurumlarının iclas və müşavirələrində iştirak etmək, habelə göstərilən iclas və müşavirələrin yekunları barədə Sədrə yazılı və ya şifahi şəkildə məruzə etmək; Unikal bina və qurğuların memarlıq-planlaşdırma həllərinin razılaşdırılmasının həyata keçirilməsində iştirak etmək; Öz səlahiyyətləri daxilində müvafiq sahədə qanunvericiliyin tələblərinə uyğun standart, norma və qaydaların hazırlanmasında və normativ sənədlərinə rəy verilməsinə nəzarət etmək; Sədrə lazım olan məlumatları Komitənin şöbələrindən və qurumlarından əldə etmək, zəruri hallarda, əldə edilmiş məlumatları ümumiləşdirmək, sistemləşdirmək və təhlil etmək; Komitə rəhbərliyinin müvafiq sərəncamları ilə yaradılmış komissiyalarda memarlıq-planlaşdırma həllərinə aid məsələlərin yoxlanılmasında iştirak etmək; Sədrin göstərişi ilə müşavirin səlahiyyətlərinə bilavasitə aid olan digər vəzifələri yerinə yetirmək və s. işləri yerinə yetirməlidir.

Yuxarıda qeyd edilənlər bir müşavir postunda olacaq şəxsin vəzifə təlimatıdır. Çoxsaylı müşavirlər olan qurumlarda bu vəzifələrin necə bölüşdürüldüyü maraq doğurur. Təəssüf ki, çoxsaylı müşavirlər olan qurumların internet saytlarında bu bölgüyə dair hər hansı məlumat, ümumiyyətlə, müşavir vəzifəsində olan şəxslərlə bağlı informasiya yoxdur.

Maraqlıdır ki, özəl şirkətlərdə də rəhbər şəxslərə müşavir təyin edilir. Məsələn, özəl bir bankda İH sədrinin müşaviri vəzifəsinə qoyulan tələblər ali iqtisad təhsili və bank sistemində ən az 7 illik (5 il rəhbər vəzifədə) iş təcrübəsinin olması; Tədqiqat aparmaq üzrə formalaşmış bacarıq; Rəhbərlikdə və kollektivdə işləmək səriştəsi; Analitik təhliletmə qabiliyyəti; Dəqiq planlaşdırma, ciddi nəzarət etmək qabiliyyəti; İnsanlarla tez ünsiyyət qura bilmək bacarığı; Strateji düşünmə və hərəkətetmə qabiliyyəti; Yaradıcılıq, təşəbbüskarlıq və məsuliyyətlilik kimi müəyyən olunub. Vəzifə təlimatları isə bankın fəaliyyət spesifikasına uyğun müəyyənləşdirilib.

Onu da qeyd edək ki, iki aya yaxındır dünya bazarında Azərbaycanın əsas ixrac məhsulu olan neftin qiymətləri kəskin ucuzlaşıb. Beynəlxalq analitik mərkəzlərə görə, mövcud qiymət konyukturu uzunmüddətli xarakter alacaq. Bu isə Azərbaycanda digər sahələrlə yanaşı, dövlət aparatında da xərclərə qənaət olunması baxımından səmərəliliyin artırılması, məmur heyətinin optimallaşdırılması istiqamətində çağırışlar formalaşdırır. Bu çağırışlar funksional əhəmiyyətə malik olmayan, yaxud təkrarçılıq yaradan vəzifələrin ixtisar olunmasını da ehtiva edir. Hazırda ABŞ kimi dünyanın ən güclü dövlətində belə dövlətin maliyyə yükünü azaltmaq üçün idarəetmə aparatında ciddi ixtisarlara gedilir. Ümumilikdə dövlət aparatında 121 min ştat ixtisar olunub. Azərbaycanda da dövlət qurumlarının, dövlətə məxsus şirkətlərin rəhbər heyətində vəzifələrin optimallaşdırılmasına çox ciddi ehtiyac var. Bu, xərclərə qənaət, həmçinin həmin qurumların fəaliyyətində keyfiyyətin artırılması prinsipi ilə həyata keçirilməlidir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (8689) 8 may 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi




**Xəbər verdiyimiz kimi, bir neçə gün öncə Bakıda Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə Türkçülük Günü münasibətilə "Dildə, Fikirdə, Əməldə Birlik: Türk Dünyasının Gələcəyi" adlı panel iclası təşkil edilib. İclasda diqqətçəkən məqamlardan biri Türk Dövlətləri Təşkilatının (TDT) Türk dünyasının gələcəyi üçün nə qədər önəmli olduğunun növbəti dəfə vurğulanması idi.**



# "TDT dövrümüzün ən uğurlu layihələrindən biridir"

## Aydın Mirzəzadə: "Avropanın aparıcı dövlətlərindən birinin özünü türk dövləti elan etməsi..."

Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun videomüraciətində bildirib ki, Türk Dövlətləri Təşkilatı Türk dünyasını siyasi, iqtisadi, mədəni və sosial sahələrdə bir araya gətirərək bölgəmizi ən güclü əməkdaşlıq strukturlarından birinə çevirib. F.Altun qeyd edib ki, Türk dünyası ölkələri ortaq tarix və mədəniyyətdən aldığı güclə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldırmaq məsuliyyəti daşıyır.

"Bu məsuliyyəti dərk edərək ümid edirəm ki, panelimiz intellektual biliklərimizi zənginləşdirməklə yanaşı, konkret addımlarla irəliləməyimizi təmin edəcək ilham mənbəyi olacaq", - deyə F.Altun vurğulayıb.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün çıxışında TDT-ni təkcə regional təşkilat kimi deyil, strateji ortaq gələcəyin mərkəzi kimi dəyərləndirib. **Sitat:** "TDT dialoq kanallarını genişləndirmə platformasıdır. Türkiyə Türk dünyası regionunda sülh və sabitliyi dəstəkləyir. Həmçinin müxtəlif vasitələrlə bir çox istiqamətdə türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsini təşviq edirik. Türk dünyasının öz təşkilatının təsis edilməsi üzv ölkələrin həm təhlükəsizliyinə, həm ortaq məqsədlərinə xidmət edir".

Diqqətçəkən çıxışlardan biri də **Türk Dövlətləri Təşkilatının Macarıstan nümayəndəliyinin icraçı direktoru Balaz Hendrişin** çıxışı olub. Hendriş vurğulayıb ki, TDT-nin Budapeştdəki ofisi Türk dünyasından kənarda yaradılmış ilk mərkəzdir: "Mərkəz TDT üzv dövlətləri ilə Avropa İttifaqı arasında iqtisadi və ticarət tərəfdaşlıqlarının asanlaşdırılması, mədəni və təhsil mübadiləsinin təşviqi, o cümlədən təqaüdlər, birgə tədqiqatlar və gənclər proqramlarını, türk diasporunu dəstəkləmək, o cümlədən Avropadakı türklər arasında icma ruhunu gücləndirmək məqsədilə yaradılıb. Nümayəndəlik ofisi TDT-nin səsini Avropanın mərkəzində daha da gücləndirir və ortaq kimliyin qorunması, dayanıqlı inkişaf və daha dərin inteqrasiyanı hədəfləyən "Türk Dünyası-2040" baxışının həyata keçirilməsinə töhfə verir".

**Milli Məclisin deputatı Aydın Mirzəzadə "Yeni Müsavat"a şərhində bildirdi ki, TDT-nin yaradılması və əməkdaşlığın genişləndirilməsi müasir dövrün ən maraqlı və məhsuldar layihələrindən biridir:** "Tərəflər artıq siyasi əməkdaşlıqdan mədəni, diplomatik, iqtisadi əməkdaşlıq formalarına keçid ediblər. Maraqlı məqam ondan ibarətdir ki, Avropanın aparıcı dövlətlərindən birinin özünü türk dövləti elan etməsi və TDT-nin bütün tədbirlərində fəal iştirak etməsi, Macarıstanın paytaxtında tədbir keçirilməsi türk dünyası ideyasının Avropanın mərkəzində eşidilməsinə imkanlar yaradır. Bu ruh, əməkdaşlıq, birlik, qardaşlıq istəyi cəmiyyətin bütün təbəqələrini, ilk növbədə gəncləri əhatə edir. Gənclər türk birliyi məsələsində aktiv rol oynayırlar. TDT-nin gənclər birlikləri ilə əməkdaşlığı bariz nümunədir.

Hesab edirəm ki, gənclər türk dünyası birliyi məsələsində böyük rol oynaya bilirlər. Bu, türkün tarixinin öyrənilməsi, ümummədəni dəyələrin mənimsənilməsidir, o cümlədən türk dünyası dövlətlərinin qarşısına çıxan problemlərin həllində bütün türk dünyasının potensialından istifadə edilməsidir. Eyni zamanda gənclər təşkilatlarının bir-biri ilə əməkdaşlığı, əlbəttə, gələcək üçün dəyərli proqramların hazırlanmasında böyük rol oynayır. Təhsil, mədəniyyət əməkdaşlığı, dünya qarşısında duran problemlərin həllində fikir mübadiləsinin aparılması da böyük rol oynayır. Bir sözlə, Türk dünyası gənclərinin böyük potensialı var və bu potensial bütün sahələrdə olduğu kimi, Türk dünyasının inteqrasiyası məsələlərində də özünü hərtərəfli göstərir".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**



## Milli Qəhrəman Hökumə Əliyevanın ev-muzeyi olacaq

**Milli Qəhrəman Hökumə Əliyevanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Samux rayonunun Alıuşağı kəndində ev-muzeyi tikilir.**

"Yeni Müsavat" Teleqraf.az istinadla xəbər verir ki, muzeyin tikintisi Milli Qəhrəmanın yaxınları tərəfindən həyata keçirilir. Burada onun foto və ona aid bütün əşyaları saxlanılacaq.

H.Əliyeva əslən Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olub. Kəlbəcərin işğalı dövründə ailəsi ilə birlikdə Samux rayonunun Alıuşağı kəndində məskunlaşıb. Sonra ailə quraraq Bakı şəhərində yaşamağa başlayıb. Onun ata-anası və qardaşı isə bu gün də Samux rayonunun Alıuşağı kəndində yaşayır.

Xatırladaq ki, Hökumə Əliyeva dekabrın 25-də Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olub. Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Hökumə Cəlil qızı Əliyeva "Azərbaycanın Milli Qəhrəmanı" adına və "Qızıl Ulduz" medalına layiq görülüb.

# Din nikahdankənar uşaqları qəbul edirmi?

## İlahiyyatçı: "Dünyaya gələn körpə necə doğulur-doğulsun, günahkar deyil, çünki..."

**Ölkədə bəzi vətəndaşların qeyri-qanuni münasibətindən dünyaya gələn körpələr qanunvericiliyin müəyyən qaydaları ilə müdafiə olunur. Lakin cəmiyyətdə hələ də bu cür uşaqlara münasibət fərqlidir.**

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 13-cü və 53-cü maddələrinə əsasən, uşaq nikahdaxili və ya nikahdankənar doğulmasından asılı olmayaraq valideynlərinin qarşısında eyni hüquqlara malikdir. Bu hüquqlara uşağın soyad alması, valideynin himayəsində olması, aliment təyin edilməsi, vərəsəlik hüququ, təhsil və sosial təminatları aiddir. Hətta uşağın atalıq mənsubiyyəti qanuni nikah olmadıqda da müəyyən edilə bilir.

Rəsmi statistikaya görə, 2024-cü ildə Azərbaycanda 16 minə yaxın nikahdankənar uşaq dünyaya gəlib.

2023-cü ildə 15622, 2022-də 18814, 2020-də 17714 belə uşaq doğulub.



Bəs dində nikahdankənar doğulan uşaqlara münasibət necədir?

**"Heydər" məscidinin imam müavini Rza Rzayev** Modern.az saytına açıqlama verib. Onun sözlərinə görə, İslamda həm hüquqi, həm dini cəhətdən nikahın bağlanması vacib hesab edilir. Nikahdankənar iki şəxsin münasibət qurması dində qadağandır. Bu, zina adlanır və haram hesab edilir.

"Müqəddəs Qurani-Kərim kitabında uca Rəbbimiz bizləri bu məsələdən xəbərdar edib ki, zinaya yaxınlaşmayın. Elə günahlar var ki, onlar yalnız Allahla bəndə arasında olur. Lakin zina məsələləri cəmiyyətin də qınaq obyektinə çevirdiyi mövzulardan biridir",- deyə din xadimi qeyd edib.

**İmam söyləyib ki, qeyri-qanuni uşaq dünyaya gətirmək həm də cəmiyyətin dəyərlərini ayaqlar altına atan mövzudur. Bununla yanaşı, ailə institutlarının prinsiplərini dağıdan, ailə münasibətlərinə, nəsil paklığına xələl gətirən prosesdir:** "Din ailəni həm hüquqi cəhətdən, həm də milli-mənəvi dəyərlər baxımından biz insanlara vacib buyurub. Ancaq dünyaya gələn körpə necə doğulursa-doğulsun, ona günahkar damğası vurmaq olmaz. Çünki onun məsuliyyəti valideynlərin üzərinə düşür".

**Rza Rzayev qeyd edib ki, nikahsız doğulan körpə pak dünyaya gəlir. Günahkar olan onun ana-atasıdır:** "Sağlam cəmiyyət istəyən vətəndaşlar birinci özləri bu məsələdə düşüncəli davranmalıdırlar. Nikahsız körpələrin sayını yox etmək üçün əhali bilməlidir ki, sağlam və qanuni nikaha üstünlük verməlidirlər. Əsasən də gənc nəsil anlamalıdır ki, zinaya həm qanunvericilik, həm din qaydaları baxımından, həm də **mənəvi paklıq cəhətdən yol vermək olmaz".**

YENİ MÜSAVAT
N 79 (8689) 8 may 2025

# Dünyanın ən ucuz taksisi - Azərbaycanın reytinq sırasındakı yeri

## Yanacağın qiyməti get-gedə artdığı üçün xidmət haqqı da artacaq; Vətəndaş taksidən istifadəyə görə gediş haqqının məbləğini dəqiq bilməlidir




**Heç demə, Cənubi Qafqaz ölkələri arasında ən ucuz taksi Ermənistanda imiş. Hər halda, dünyanın keyfiyyət üzrə ən böyük məlumat bazası olan Numbeo taksi qiymətləri ilə bağlı açıqladığı reytinq göstəricilərindən bu qənaət hasil olur. Bildirilir ki, qonşu ölkədə taksi ilə gediş-gəlişin qiyməti 1 kilometr üçün ortalama 0,31 dollar təşkil edir.**

Gürcüstan və Türkiyədə bu rəqəm 0,73 dollar, Azərbaycanda 0,59 dollar, Rusiyada 0,42 dollar, İranda 0,3 dollardır. Reytinqə əsasən, ən bahalı taksi İsveçrədə (4,68 dollar), ən ucuz taksi isə Qırğızıstandadır (0,23 dollar).

Qeyd edək ki, mayın 2-nə olan məlumata görə, Azərbaycanda 27 min sürücü taksi fəaliyyətinə icazə verən buraxılış kartını alıb. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) kommunikasiya departamentinin direktoru Vəli Məmmədovun sözlərinə görə, ötən il bu rəqəm 67 minə bərabər olub.

**Nəqliyyat eksperti Adil Nəbiyev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycanda taksilərdə qiymətlərin enməsi gözlənilmir. Ekspertin sözlərinə görə, yanacağın qiyməti get-gedə artdığı üçün xidmət haqqı da artacaq:** “Taksi sürücüləri üçün yeni tələblər də qiymət artımına səbəb ola bilər. Belə ki, taksi sürücüləri imtahanlar və s. üçün təxminən 300-400 manat xərclədilər. Bu səbəbdən də qiymətin artacağı ehtimalı yüksəkdir. Doğrudur, bir müddət taksi qiymətləri düşmüşdü. Bu, bazarda birdən-birə şirkətlərin çoxalması ilə bağlıdır. Keyfiyyət deyil, qiymətdə rəqabət apardılar. Bu da onunla nəticələndi ki, əgər əvvəllər köhnə avtomobillə taksi şirkətində işləmək mümkün idisə, qiymət rəqabəti də mümkün idi. Hazırda isə daha müasir, ili yeni avtomobillərlə xidmət göstərmək tələbi olduğu üçün bu sahədə qiymət artımı müşahidə olunacaq”.

**Nəqliyyat eksperti Elməddin Muradlı isə qeyd etdi ki, Azərbaycanda taksi qiymətləri hələ ki tam tənzimlənmir:** “Hazırda bu sahədə xaotik vəziyyət hökm sürür. Taksi sürücüləri bu vəziyyətdən çox narazı və narahatdırlar. Əvvəlki illərlə müqayisədə taksi sürücüləri indi daha komfortlu avtomobillərdə xidmət göstərirlər. Bu da indiki qiymətlərlə uyğun gəlmir. Taksi sürücüləri hesab edirlər ki, qiymətlər tənzimlənməlidir. Onlar qiymətin kilometrə görə təyin olunmasını, bu zaman ümumi vəziyyətin nəzərə alınmasını istəyirlər. Bu gün Azərbaycanda qiymətin aşağı həddi müəyyənləşdirilib - 2,50 AZN. Bu həddən yuxarı qiymət hələ ki müəyyənləşdirilməyib. Fikrimcə, bu məsələ qanuni yolla tənzimlənməlidir. Vətəndaş Bakıda adi halda taksidən istifadəyə görə gediş haqqının məbləğini dəqiq bilməlidir. Hazırda eyni istiqamətə fərqli günlərdə, fərqli saatlarda gediş haqqı müxtəlifdir. Sərnişinləri narazı salan məqam məhz budur. Bu baxımdan məsələyə obyektiv yanaşma olmalıdır”.

❑ **Nigar HƏSƏNLİ,
“Yeni Müsavat”**

# “Əlisa Nicat o zaman yaşasaydı, daha artığını yazardı”- Səməd Vurğunun nəvəsindən olay kimi müsahibə

**“Yeni Müsavat”ın növbəti müsahibi mərhum xalq yazıçısı, 1990-cı ildə müstəqil Azərbaycanın ilk parlament üzvlərindən biri olan Yusif Səmədoğlunun qızı Humay Vəkilovadır.**



**- Yusif Səmədoğlunu ilk növbədə bir ata kimi necə xatırlayırsınız? Eləcə də onun ədəbiyyatla bağlı söhbətləri evdə hansı mühit yaradırdı?**

- Həddən artıq demokrat, pozitiv, zarafatcıl insan idi. Düzü, ədəbiyyatla bağlı bizimlə çox söhbət etməzdi. Yalnız anamla ədəbiyyatla bağlı danışıqlarına biz də maraqla qulaq asardıq. Amma yadımdadır, “Qətl günü” romanını yazanda bizə oxuyurdu. Çox uşaq idik deyə, əsərin möhtəşəmliyini o qədər də dərk etmirdik.

Çox heyvansevər idi. Evimizdə çox heyvan saxlamışıq. Akvariumda balıqlarımız var idi. Yadımdadır, hər bazar günü yarmarkalar olurdu. Gedirdik ora, balıqları seçirdik, onlara yem alırdıq. Nəyə görəsə mən tez-tez bu anları xatırlayıram...

**- Hazırda Vəkilovlar ailəsində nə kimi yeniliklər var? Yusif Səmədoğlunun övladlarının, nəvələrinin hansı uğurları var?**

- Atam nəvələrini hədsiz dərəcədə çox sevirdi. Hətta xəstəxanada ağır vəziyyətdə olanda uşaqları apardıq yanına, göz yaşlarını saxlaya bilmədi, dözmədi, dedi, uşaqları aparın. İndi nəvələrini görsəydi, çox qürur duyardı, ali savadlıdırlar, yaxşı ailə başçısıdırlar. Mənim qızım, oğlum evlidirlər. Bacımın kiçik oğlu evlidir. Nəticələri var, çox şükür.

**- Bəs ananız Nəmidə xanım necədir? Bildiyim qədərilə Yusif Səmədoğlu ilə bir-birilərini çox sevibmişlər...**

- Anamın indi 88 yaşı var. Son dövrlər atamı tez-tez xatırlayır, ağlayır. Bəli, atamla çox sevirdilər bir-birilərini. Anam çox gözəl qadın olub. Atam da çox yaraşıqlı idi. Atam onu görən kimi vurulub, bir həftə ərzində də elçi göndərib. Yaxşı əri, atanı itirmək çox ağırıdır. Bacımla çox xatırlamağa çalışardıq ki, bizə qarşı hansısa mənfi hərəkəti olub ki, özümüzü sakitləşdirək, heç nə tapmırdıq. Ona görə də atamın itkisi bizə, eləcə də anama çox ağır idi...

**- Sizcə, bu gün Yusif Səmədoğlunun ədəbi irsi cəmiyyət tərəfindən yetərincə qiymətləndirilirmi?**

- Mən ədəbiyyatdan uzaq adamam. Amma məncə, yetərincə qiymətləndirilir. Bu yaxınlarda Moskvada kitabı dərc olunub. Bilirsiniz, çox az yazıb.



**- Az yazsa da, min bir əsərə dəyən əsərlər qoyub gedib, elə “Qətl günü” romanı kifayət edər. Bu gün ekranlaşdırmaq imkanınız olsa, Yusif Səmədoğlunun hansı əsərini seçərdiniz?**

- “Deyilənlər gəldi başa” əsərini istərdim, düzdür, tamamlanmamış əsərdir, amma ekranlaşdırılsaydı, yaxşı olardı. Çox təəssüf onu tamamlaya bilmədi...

**- İstərdim Yusif bəyin ədəbi çevrəsindən söz açaq. Kimlərlə daha sıx əlaqədə idi, tez-tez danışırdı?**

- Tez-tez İsmayıl Şıxlı ilə danışırdı. Yazıçılar İttifaqının sədri idi, həmişə görüşürdülər. Bizə tez-tez gəlirdi. Yadımdadır, çayı çox içərdilər, bacımla ikimiz onlara çay aparanda söhbətlərini eşidərdik. Vaqif əmim də gələrdi, söhbət edərdilər. Əsas Anar və İsmayıl Şıxlı daha çox yadımda qalıb.

**- İki qardaş ən çox nəyin üstündə mübahisə edərdilər?**

- Adətən Vaqif əmim bizdə olanda oturardılar, iki qardaş çox söhbət etməzdilər. Elə hey susardılar. Biz ortaya girirdik. Yox, heç vaxt mübahisə etməzdilər. Bir dəfə də xeyli oturublar, Vaqif əmi dedi ki, Yusif, xeyli susduq , indi mən gedim (gülür - red.) Yəni söhbətləri az olduğuna görə mübahisələri də olmurdu.

**- Bayaq “Qətl günü”ndən söz düşdü, romanda Yusif Səmədoğlunun baş qəhrəmanı sanki üç zamanda , üç obrazla çıxış edir. Elə təəssürat yaranır ki, birincisi Molla Pənah Vaqif, ikincisi Hüseyn Caviddir. Üçüncüsü isə qeyri-müəyyən bir şəxsdir. Sizcə, o şəxs kimdir? Elə hesab etmək olar ki, orada özünü əks etdirib, yoxsa başqa prototip var?**

- Atam rəhmətə gedəndən sonra bir dəfə oxudum o əsəri. Dediyim kimi, atam da bunu bizə oxuyurdu. Bəli, özünə oxşarlıqlar çoxdur. Amma bu suala özü daha yaxşı cavab verərdi. Mən də oxşarlıqları hiss etmişəm. Bilirsiniz, çox kiçik idim. Heyfsilənirəm ki, bəlkə atamla “Qətl günü” romanı haqqında daha çox söhbət edərdim... Atam sintezatorda çox gözəl ifa edərdi. “Sarı gəlin”i elə gözəl ifa edərdi ki. Mən elə bilirdim ki, atam çox yaşayacaq. Bilsəydim, belə olacaq, yazardım onları...

**- “Qətl günü” romanının sovet rejimi dövründə çapı və yayımı necə qarşılanmışdı? Rəsmi dairələrdən reaksiya olmuşdumu?**

- Atam deyirdi ki, bu roman çap olunmasa, mən Vətənimi tərk edib gedəcəyəm. Bu söhbət yadımdadır. Çətin olsa da, dostları dəstək verirdi. Amma bütün detalları dəqiqliklə yadımda saxlamamışam.

**- Humay xanım, son illər gənc yazarlar arasında klassikləri, ədibləri gah ələ salır, gah da onların yaradıcılığında qüsurlar axtarmağa çalışırlar. Buna necə yanaşırsınız?**

- Məncə, onlar gündəmə gəlmək istəyirlər, yəni reklam xarakterlidir. Mən bilirəm ki, atam sağ olsaydı, bu cür söhbətlərə heç diqqət etməzdi. Atamın sağlığında Səməd Vurğunla bağlı üzünə söz deyə bilməzdilər. Amma atamla Vaqif əmi rəhmətə gedəndən sonra, görürsünüz, dilə gəliblər. Belə məqamlar olur, adama pis təsir edir. Yəqin ki, belə söhbətlər olub, olacaq da...

**- Yalnız gənclər deyil, yaşlılar arasında da belə iddialar eşidirik. Yaxınlarda yazıçı Əlisa Nicat Səməd Vurğun haqqında xoşagəlməz ifadələr səsləndirmişdi. “Hər zövqü, səfası partiyamızdır” - bunu Səməd Vurğun yazıb. Hələ bunu deyən adamın heykəlini də qoyublar. Səməd Vurğun Cavidin, Müşfiqin əleyhinə nə qədər yazılar yazıb?" demişdi...**

- Bu barədə mənə xəbər verdilər, Anar müəllim onun çox gözəl cavabını verdi. Əlbəttə, bu fikirlərlə razı deyiləm, bunun sübutları olmalıdır. O ki qaldı partiya ilə bağlı deyilənə, indi danışanlar o zaman yaşasaydılar, onlar bəlkə Səməd Vurğundan da artıq yazardılar. İndi oturub “filan vaxt filan şair şeir yazıb” demək düz deyil.

**- Babanızı təhqir etdiyinə görə məhkəməyə müraciət etməyi heç düşündünüzmü?**

- Heç vaxt verməzdim. Mən özümü onlardan üstün hesab edirəm. Heç reaksiya belə vermirik. Çünki Səməd Vurğun olub, olacaq da. Həmişə onu istəyənlər daha çox olacaq. Məhkəməyə vermək barədə söhbət belə ola bilməz, çünki atam buna çox əsəbləşərdi.

**- Humay xanım, istərdim, söhbətimizi xoş ovqatla davam etdirək. Atanızın həyatında heç vaxt danışılmayan, amma yaddaşınızda iz buraxan bir hadisəni bölüşmək istərdinizmi?**

- Çox zarafatcıl idi. Uşaq idim, heç məktəbə də hələ getmirdim. Atamın QAZ-24 markalı avtomobili var idi. O sürürdü, mən də arxada oturub gedənlərə dil çıxarırdım. Bir maşın qırmızı işıqda dayandı, atama acıqlanmağa başladı, qışqıra-qışqıra dedi ki, uşağa tərbiyə verməmisən, filan. Atam da qulaq asdı-asdı, axır o da dil çıxarıb, yola davam etdi. Atamla bağlı xoş xatirələrim çoxdur, hansını deyim.

❑ **Afaq MİRAYİQ,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 79 (8689) 8 may 2025

# “Təkmilləşən” kiberdələduzluq - onu necə buxovlamalı?

## Vüqar Bayramov: “Bu istiqamətdə məlumatlandırma çox vacibdir və bunun genişləndirilməsinə ciddi ehtiyac duyulur”

**“Azərbaycanda narahatedici və paradoksal bir vəziyyət yaranıb. Hər gün - bəli, hər gün - vətəndaşların bank kartlarından 25-30 min manat civarında vəsait kiberdələduzluq yolu ilə oğurlanır. Bu rəqəmlər artıq adi statistikaya çevrilib. Daxili İşlər Nazirliyi demək olar ki, hər gün bu barədə həyəcan siqnalı verir, lakin problem azalmır, əksinə, dərinləşir”.**




Bu barədə **Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz** bildirib.

O qeyd edib ki, bu, artıq tək-tək hadisələr deyil, sistemli və kütləvi xarakterli cinayət dalğasıdır: “Təəccüblənməmək mümkün deyil: axı son 2-3 ildə ölkədə bu sahədə müsbət istiqamətdə ciddi addımlar atılıb. Yəni hər şey artma istiqamətində olub. Maarifləndirmə kampaniyaları güclənib, kibermütəxəssislərin sayı xeyli artıb, infrastruktur müasirləşdirilib, DİN nəzdində Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi yaradılıb, konkret müsbət nəticələr var ortada, Baş İdarə ilə banklar arasında real vəziyyətdə işləyən antifraud sistem qurulub və s. Amma maraqlı və absurd olan budur ki, nəticə fərqli istiqamətdə inkişaf edir: kibercinayətkarlıq artır. Çox güman ki, bu çatışmazlıq texnologiya deyil, insan amilidir”.

**Ekspert müşahidələrinə əsaslanaraq belə qənaətə gəlib ki, bu fırıldaq sxemlərinin effektivliyi bankların müştəri məlumatlarının haradansa sızması ilə birbaşa bağlıdır:** “Sadəcə, təsadüfi nömrələrə zəng vurulmur. Əksinə, dövriyyəsi olan, kartında pul olan "yağlı müştərilər" hədəf seçilir. Bu isə bizə əsas verir ki, məlumat sızıntısı ehtimalını ciddi şəkildə araşdıraq".

**Onun sözlərinə görə, bu məlumatlar həm banklardan, həm də mobil operatorlardan sızdırıla bilər, lakin ən çox ehtimal bank məlumat bazaları ilə bağlıdır**: “Nə etməliyik?

1. Fərdi məlumatların qorunması haqqında qanunvericilik təcili şəkildə sərtləşdirilməlidir.

2. Banklarda və mobil operatorlarda müştəri bazasına çıxışı olan bütün əməkdaşlar üzrə daxili audit və təhlükəsizlik yoxlamaları həyata keçirilməlidir.

3. Məsuliyyət yalnız istifadəçiyə yox, məlumatı qorumağa borclu olanlara da şamil edilməlidir və s.

Əgər bu sahədə ciddi araşdırma və hüquqi mövqe ortaya qoyulmasa, kibercinayətkarlıq daha da sistemli xarakter alacaq. Hər gün açıqlanan statistikalarla yalnız vətəndaşlar yox, dövlətin rəqəmsal etimadı və maliyyə sabitliyi də zərbə altında qalacaq. Belə davam edərsə, vətəndaşlar kartlarında pul saxlamaq istəməyəcəklər".

Qeyd edək ki, dünyanın bir çox ölkələrində kiberdələduzlara qarşı müxtəlif mübarizə planları hazırlanır. Misal üçün, bu günlərdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev fırıldaqçılığla mübarizə üçün işçi qrupunun yaradılmasını nəzərdə tutan sənədi imzalayıb. Bu qrup maliyyə köçürmələrinə nəzarət edəcək və cinayət sxemlərində iştirakda şübhəli bilinən kartları dərhal bloklayacaq. Qrupa Mərkəzi Bankın, Daxili İşlər Nazirliyinin və ödəniş sistemlərinin əməkdaşları daxil olacaq. Yeniliyin məqsədi oğurlanmış vəsaitlərin xaricə köçürülməsinin qarşısını almaq və zərərçəkənlərə qaytarılmasını sürətləndirməkdir. İmzalanmış sənədə əsasən, məlumat sızmasına görə məsuliyyəti banklar və ödəniş xidmətləri daşıyacaq. Bu cür sızmalar nəticəsində müştərilər zərər görsə, təşkilatlar təzminat ödəməli olacaqlar. Fırıldaqçılıq etmək üçün bilə-bilə kartlarına, pul kisələrinə və ya hesablarına giriş imkanı verənlər üçün də məsuliyyət tətbiq edilir. Ölkə həmçinin zəif təhlükəsizlik səbəbindən məlumatların sızmasına və ya sındırılmasına icazə vermiş maliyyə qurumlarının “qara siyahı”sını yaradacaq.

Bəs kiberdələduzlara qarşı bu tədbirlər planı effektiv olacaqmı və eyni sənəd bizim ölkəmizdə də hazırlanmalıdırmı? Kiberdələduzluğa görə cəzalar artırıla bilərmi?

Mütəxəssislər hesab edir ki, Özbəkistanda tətbiq edilən bu kimi tədbirlər planı mübarizənin effektivliyini artırmaq potensialına malikdir. İşçi qrupunun yaradılması, real vaxtda şübhəli kartların bloklanması, zərərçəkmişlərə təzminat mexanizminin tətbiqi və məlumat sızmasına görə bankların məsuliyyət daşıması kiberdələduzlara qarşı sistemli mübarizənin əsas sütunlarını təşkil edir. Əgər tədbirlər koordinasiyalı şəkildə icra olunarsa və texniki-təşkilati boşluqlar aradan qaldırılarsa, bu yanaşma həm maliyyə sabitliyini qorumaq, həm də ictimai inamı artırmaq baxımından səmərəli ola bilər.

Əlbəttə ki, Azərbaycanda da belə bir kompleks və hüquqi əsaslı tədbirlər planının hazırlanması zəruridir. Ölkədə kiberdələduzluq artıq sistemli və kütləvi xarakter alıbsa, deməli, ona qarşı da sistemli və koordinasiyalı reaksiya verilməlidir. Hüquqi baza təkmilləşdirilməli, məlumat sızması hallarına görə banklar və mobil operatorlar məsuliyyət daşımalıdır. Eyni zamanda bu tədbirlər yalnız texniki səviyyədə yox, qanunvericilik və cinayət məsuliyyəti çərçivəsində də həyata keçirilməlidir.

Mütəxəssislər həmçinin qeyd edir ki, bu sahədə cəza tədbirləri kifayət qədər sərt olmalıdır. Artıq təkliflər də var ki, kiberdələduzluq maddəsi ümumi fırıldaqçılıq anlayışından ayrılmalı, texnoloji fırıldaqçılığa xüsusi yer verilməlidir. Bu, həm də preventiv amil kimi çıxış edə bilər. Məsələn:

*Məlumat sızmasına səbəb olan əməkdaşlar üçün cinayət məsuliyyəti;*

*Fırıldaqçılıq məqsədilə bilərəkdən hesab və ya kart təqdim edən şəxslərin cəzalandırılması;*

*Müştəri məlumatlarını kommersiya maraqları üçün yayan təşkilatlara qarşı cərimə və lisenziya itkiləri.*

**Mövzu ilə bağlı millət vəkili Vüqar Bayramov “Yeni Müsavat”a danışıb:** “Son dövrlər kiber dələduzluq hallarının sayının artması müşahidə olunur. Xüsusilə də plastik kartlardan vəsaitin oğurlanması, eyni zamanda bəzi hallarda vətəndaşın aldadılaraq onun adına kreditin rəsmiləşdirilməsi və həmin kreditin kiberdələduz tərəfindən mənimsənilməsi kimi hallar var. Təbii ki, bu istiqamətdə məlumatlandırma çox vacibdir və məlumatlandırmanın genişləndirilməsinə ciddi ehtiyac duyulur.

Çünki vətəndaşlarımızın bu məsələlərdə maariflənməsi, xüsusilə də plastik kartlarla bağlı məlumatların üçüncü şəxslərlə paylaşılmamasının vacibliyinin dərk edilməsi olduqca önəmlidir.

Amma bütün bunlarla yanaşı, təbii ki, bütövlükdə kiberdələduzluğa qarşı banklarda təhlükəsizlik sistemlərinin daha da gücləndirilməsinə ehtiyac var. Bu istiqamətdə xüsusi tədbirlər planının hazırlanması məqsədəuyğun olardı. Mərkəzi Bank tərəfindən artıq bir sıra tədbirlər həyata keçirilir və bu tədbirlərin keçirilməsində məqsəd kiberdələduzluğa qarşı daha effektiv mübarizə aparmaq imkanlarını artırmaqdır.

Yuxarıda qeyd olunan məlumatlandırma, vətəndaşların məlumatlarını üçüncü şəxslərlə paylaşmaması kimi vacib tədbirlərlə yanaşı, banklarda təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsi və xüsusilə də yeni texnologiyalardan istifadə olunması da təhlükəsizlik meyarlarının gücləndirilməsinə xidmət etməlidir. Çünki bu, bank xidmətlərinin daha təhlükəsiz şəkildə göstərilməsinə imkan yarada bilər.

Düşünürəm ki, xüsusilə son günlərin və son ayların statistikası göstərir ki, bu istiqamətdə sistemli tədbirlərin genişləndirilməsi olduqca vacibdir".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Atasının qətlini 60 minə sifariş edibmiş - təbii yolla öldüyü bilinsin deyə “tok”a verəcəklərmiş



**İmişli rayonunda atasının qətlini sifariş verən oğul ağır cəza alıb. Onun qətli hansı səbəbdən sifariş verməsi məlum olub.**

Musavat.com xəbər verir ki, Fəqan Fərəcov İmişli rayonunda yaşayan atasının qəsdən öldürülməsini tanışı İlkin Hüseynova sifariş verib. İlkin Hüseynovun isə cinayəti icra etmək üçün qabaqcadan əlbir olduğu Fariz İsmayılovla birlikdə İmişli rayonuna getməsi, lakin öz iradələrindən asılı olmayan səbəblərdən törədilməsinə hazırlıq gördükləri qətl cinayətini başa çatdıra bilməmələrinə əsaslı şübhələr müəyyən edilib.

Baş Prokurorluğun İstintaq idarəsində istintaqı aparılan iş üzrə toplanmış sübutlar əsasında Fəqan Fərəcov Cinayət Məcəlləsinin 32.3 (cinayətin təşkilatçısı), 28, 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürməyə hazırlıq), 32.3, 28, 120.2.5 (sifarişlə adam öldürməyə hazırlıq) və digər maddələri, İlkin Hüseynov və Fariz İsmayılov isə həmin məcəllənin 28, 120.2.1, 28, 120.2.5 və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər.

Məlum olub ki, Fərəcov atasının qətlə yetirilməsi üçün 60 min manat verməyə razılaşıb.

Fərəcov qətlin törədilməsini İlkin Hüseynovla razılaşdırıb. Lakin ona daha iki nəfər kömək edəcəkmiş. 30 min manat İ.Hüseynova çatacaq, qalan məbləğ isə digər iki nəfər arasında bölünəcəkmiş. Plana əsasən, Fərəcovun atasının ölümünün təbii yolla baş verməsi görüntüsü yaradılmalı imiş. Bu məqsədlə onun elektrik cərəyanı verilərək öldürülməsi planlaşdırılıb. Fariz İsmayılov danışıqlar gedən zaman Moskvada olub. onun yol xərclərini də Fəqan qarşılayaraq Bakıya gəlməsinə şərait yaradıb.

İş üzrə Fəqan Fərəcov, İlkin Hüseynov və Fariz İsmayılovla yanaşı daha bir nəfər həbs edilib. Onun işi baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Məlumata görə, Fəqan atasını qisas almaq üçün öldürmək istəyib. O deyib ki, qardaşı və anasının ölümündən sonra depressiyaya düşüb. Fəqan atasının başqa qadınlarla münasibətinin olmasını eşitdiyi üçün onu öldürmək istəyib.

İstintaqla müəyyən edilib ki, təqsirləndirilən şəxslər Fəqanın atasını öldürmək üçün İmişliyə gediblər. Lakin kənar şəxslər onları görüb və planlarını başa çatdıra bilməyiblər.

Fəqanın atası ondan və digər şəxslərdən şikayətçi olmayıb.

❑ **İlkin MURADOV, Musavat.com**

# Prezidentin o sərəncamı... - hökumətə verilən 3 aylıq vaxt bitib

## Minimum əməkhaqqı artırıldı, bəs sosial müavinətlər?

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bu il minimum aylıq əməkhaqqı məbləği 1 yanvar 2025-ci il tarixdən 400 manat müəyyən edilməklə 2019-cu ildən bəri ölkədə həyata keçirilən sayca 5-ci sosial islahat paketinin icrasına başlanıldığı elan edilib. Lakin sosial islahat paketi çərçivəsində sosial müavinət və təqaüdlər də artırılmalıdır.**

Prezidentin keçən il dekabrın 23-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamla hökumətə tapşırılmışdı ki, bu haqda təkliflərini üç ay müddətində dövlət başçısına təqdim etsin.

**İqtisadçı ekspert Pərviz Heydərov** bildirib ki, Prezidentin sərəncamı ilə Nazirlər Kabinetinə verdiyi müddət martın 23-də başa çatıb. Onun sözlərinə görə, artımlar hələ ki gecikir.

"Hesab edirəm ki, büdcədə 3 milyard 3 milyon manat profisit, üstəgəl, 2025-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat üzrə xərclərə öncədən 4 milyard 811 milyon manat ayrılması fonunda müavinət və təqaüdlərin hələ ki artırılmaması hökumətin ola bilsin, dünya bazarlarında neftin və sairənin qiymətləri ilə bağlı tələsik qərar verməmək və yaxud addım atmamaq istəyi ilə bağlıdır. Çünki buna başqa cür izahat vermək çətindir", - ekspert vurğulayıb.

Bəs artımlar reallaşmaya bilərmi? Çünki büdcədə neftin qiyməti 70 dollar götürülüb, hazırda dünya bazarında 55-60 dollara satılır. Hətta bəzi siyasətçilər devalvasiyanı qaçılmaz adlandırıb və hökuməti bu addıma getməyə çağırıb.

**İqtisadçı Xalid Kərimli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ötən ilin büdcəsi müzakirə edilib qəbul edilən zamanı sosial ödənişlər və əməkhaqları üçün vəsait ayrılıb:** "Bu il minimum əməkhaqqı artırılanda gözlənti var idi ki, bu növ təqaüdlər və müavinətlər də artırılacaq. Bu gözləntini elə hökumətin özü yaratmışdı. Həm büdcədən 1 milyard manat pulun ayrılmasını nəzərdə tutmaqla, həm də sosial mesajlarla belə bir fikir formalaşdırmışdı. Lakin görünən odur ki, hökumət ləngidir. Büdcəni təhlil edən zaman artımın yanvar ayında olacağını gözləyirdim. Həm də ölkədə bir infilyasiya var və artımlar 2024-cü ildə də olmayıb. Ən son artımlar 2023-cü ildə olmuşdu. Bu baxımdan, təhsil sektorunda da müəllimlərin iki ildir ki, əməkhaqlarında dəyişiklik yoxdur. Bu baxımdan gözlənti var idi və büdcədə ehtiyat nəzərdə tutulmuşdu. Lakin hökumət ləngidir, artıq 5-ci aydır ki, qərarlar qəbul edilmir. Ola bilsin ki, dünyadakı vəziyyəti müşahidə edir, neftin qiyməti ilin əvvəlindən 18 faiz düşüb. Son bir ildə 25 faizə qədər azalma var. Dövlətin ticarət və neft-qaz sektorundan gəlirləri azalıb. Yəqin ki, hökumət ehtiyat edir. Çünki əməkhaqqını qaldırmaq, sosial müavinəti artırmaq o qədər də mürəkkəb texnologiya deyil. Gözləyib görək strategiyasının olduğunu düşünürəm. Başqa cür məntiqli izah yoxdur. Neftin indiki qiyməti yaxşıdır. Hökumətin, görünür, qiymətin daha da düşəcəyi ilə bağlı narahatlığı var".



**İqtisadçı Elçin Rəşidov bildirib ki, neftin qiymətinin 70 dollar götürülməsinin ümumi büdcəyə təsiri maksimum 500 milyon civarında olar:** "Yeni sosial müavinətlərin artırılmasının ləngidilməsinin əsas səbəbi kimi bu təsirləri birbaşa göstərmək olmaz. Neftin qiymətinin düşməsi büdcəyə az təsir edir, lakin dövlətin gələcək strateji planlarına birbaşa aidiyyəti olur. Əvvəllər də müşahidə etmişik, neftin qiyməti qalxarkən dövlət daha səxavətli olur, düşərkən isə "kəmərləri sıxır". Bu isə bizim hökumətin strategiyasının olmamasının əlamətidir. Mövcud strategiyalar isə keyfiyyətsizdir. Onları rəhbər tutub işləmək arzuolunan deyil. Ölkənin ümumi makroiqtisadi gələcək statusu barədə işlək statusu olmalıdır. Bunun olmaması iqtisadiyyat üçün böyük itkidir.

Əks halda, hökumət neftin qiymətinə belə qısamüddətli reaksiyalarla cavab verəcək və uzunmüddətli strateji davranış göstərə bilməyəcək".

**İqtisadçı Eldəniz Əmirov da mövzu ilə bağlı fikrini bildirib:** "Nəzərə alaq ki, ötən il dekabrın sonunda imzalanan sərəncamla hökumətə təkliflərin hazırlanması tapşırığı verildi. Bu təkliflərin qəbul edilməsi, yenidən düzəlişə göndərilməsi, maliyyə imkanlarının qiymətləndirilməsi və s. müəyyən qədər vaxt tələb edir. Bu baxımdan, gecikmələr mümkündür. Hesab etmirəm ki, sosial istiqamətlər üzrə ödənişlərin dayandırılması, artımların reallaşdırılmaması baş verəcək. Doğrudur, neftin qiymətində baş verən düşmələr büdcə daxilolmalarına, ölkədə iqtisadi aktivliyə təsirini göstərir. Risklərin qiymətləndirilməsi baxımından bir qədər ehtiyatlı yanaşmaları ön plana çəkir. Bu faktorun da müəyyən qədər rolu ola bilər. Amma bu, artımların reallaşmasının qarşısını alan birbaşa səbəb ola bilməz".

❑ **Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"**

# Artan tələbə intiharları - genofondumuzu necə qoruyaq?

## Rövşən Nəcəfov: "İnsanların intihar etməməsi üçün qınaq və qərəz olmamalıdır"



**Şəmkirdə intihar hadisəsi baş verib. Hadisə mayın 6-da rayonun Çinarlı qəsəbəsindəki meşəlik ərazidə qeydə alınıb. Qəsəbə sakini, 2006-cı il təvəllüdlü İ.Məmmədov özünü ağacdan asıb. İntiharın səbəbi məlum deyil, aidiyyəti qurumlar tərəfindən araşdırılır. İ.Məmmədov Azərbaycan Dövlət Aqrar Universitetinin 2-ci kurs tələbəsi idi.**

Aprelin 14-də isə Bakının Nəsimi rayonunda intihar hadisəsi baş verib. Şövqiyar Abdullayev küçəsi, 23 ünvanında (Göy Məscidin arxası) yaşayan I kurs tələbəsi özünü 15 mərtəbədən atıb. O, həmin binada 3 qızla bərabər kirayədə qalırmış.

Bir qədər əvvəl - martın 28-də isə Gəncədə 21 yaşlı qız intihar edib. Nüşabə Məmmədova 4 il öncə atasının vəfatından sonra psixoloji sarsıntı keçirib. O, atasının qəbrinin yanında sirkə məhlulu içib. Ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən gənc qız orada dünyasını dəyişib. Gəncə Dövlət Universitetinin tələbəsi N.Məmmədova təhsil aldığı müddətdə tədrislə də məşğul olub.

Yanvar 9-da şəhid Babək Sakit oğlu Aslanovun birinci kurs tələbəsi olan qardaşı Saməddin Aslanov vəfat edib. Şəhidin yaxını Elyar Vəliyev bildirib ki, Saməddin yaşadığı travmalardan, çəkdiyi iztirablardan toparlana bilməyərək həyatına son qoyub.

Göründüyü kimi, son bir neçə ay ərzində 4 tələbə canına qıyıb. Daha əvvələ getsək, böyük statistika çıxar. Təbii ki, intiharların səbəbləri fərqli ola bilər, amma acı reallıq onların tələbə olmasıdır. Axı bu gənclər üçün həyat indi başlayır, karyera və ailə qurmaq perspektivləri irəlidədir.

Bəs tələbələrin intiharına əsas nə səbəb ola bilər?

Psixoloqlar qeyd edir ki, tələbələrin intiharına səbəb olan amillər müxtəlif ola bilər. Onlar arasında sosial-iqtisadi çətinliklər, ailəiçi zorakılıq və ya anlaşılmazlıqlar, psixoloji travmalar, depressiya və ümidsizlik halları, təhsil sisteminin gərginliyi, karyera təzyiqləri, imtahan stresləri, sosial təcrid və ya təhqir, həmçinin kiberzorlama kimi faktorlar yer alır. Xüsusilə son illərdə təhsil alan gənclər yalnız akademik nailiyyət uğrunda deyil, həm də ailələrinin maddi və mənəvi gözləntiləri qarşısında böyük təzyiq altındadırlar.

Azərbaycan cəmiyyətində psixoloji yardım almaq məsələsinə hələ də müəyyən stereotiplərlə yanaşılır. "Psixoloqa gedən ruhi xəstədir" kimi köhnəlmiş və yanlış təsəvvürlər bu gənclərin vaxtında kömək istəməsinə mane olur. Digər tərəfdən, universitetlərdə psixoloji dəstək mərkəzlərinin formal fəaliyyət göstərməsi və ya ümumiyyətlə, olmaması bu boşluğu daha da dərinləşdirir.

Daha bir məsələ, bir çox tələbə özünü cəmiyyətin gözləntiləri arasında sıxılmış vəziyyətdə hiss edir. Universitetlərdə davamlı rəqabət, müvəffəqiyyətə məcbur edən sistem və uğursuzluğun damğalanması tələbələri emosional tükənməyə aparır. Eyni zamanda bəzi tələbələr təhsil aldıqları şəhərdə ailələrindən uzaqda, yalnız yaşayır, maddi və sosial dəstəkdən məhrum qalırlar. Belə olan halda, onların daxili çərəsizlikləri görünməz olur və nəticədə intihar bəzən bu səssiz ağrıların son çarəsi kimi qəbul edilir.

**Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "İntiharın yaşı və statusu olmur. İntihar qərardır. İntihar şəxsin ətrafa özünü ifadə formasıdır. İntihar etmək ani qərar deyil, müddətli qərardır.

Tələbəlik azadlıq və müstəqillik anlayışlarının inkişaf etdiyi dövrdür. Akademik tələblər, yeni mühitə uyğunlaşma və çətinliklər zamanı dəstəyin olmaması intihar düşüncəsini formalaşdıra bilər. Tələbəlik dövründə alkoqol və maddə asılılıqlarının yaranması təcrübəsi yaranır. Problemlərdən çıxış kimi görünən vərdişlər bəzən şəxsi intihara təhrik etmiş olur. Həyatına rasional baxmayan şəxsin gələcəklə bağlı düşüncələri müsbət inkişaf etmir. Tələbələrdə əvvəlcədən psixi sağlamlıq problemləri ola bilər. Həmin dövrdə isə özünə və ətrafa qarşı qeyri-adekvat davranışlar sərgiləyə bilər. Ətraf-mühitin verdiyi stres faktoru da yaranmış halı tamamlaya bilər. Tələbəlik dövründə müşahidə olunan odur ki, intiharın mənbəyi depressiya və ya hansısa asılılıq pozuntularıdır.

İnsanların intihar etməməsi üçün qınaq və qərəz olmamalıdır. Ali və orta ixtisas məktəblərində təhsil, yəni pedaqoji psixoloqların fəaliyyətləri genişləndirilməlidir. Fərdi və qrup formasında psixoloji görüşlərin keçirilməsi istiqamətində maarifləndirici kampaniyalar aparılmalıdır. Rüblük və illik psixoloji mühitin dəyərləndirilməsi aparılmalıdır. İntihar düşüncəsi olan gənci psixoloqa yönləndirərək, peşəkar dəstək alınmalıdır. İntihara artıq cəhd etmiş insanlar isə psixiatrik müalicə ilə stasionar müalicəyə cəlb edilməlidir. İnsanları öz düşüncələrində boğulmağa qoymamalıyıq. Mənfi düşüncələrdə boğulmaq yox, üzərək sahilə çıxmağı öyrətməliyik".

❑ **Xalidə GƏRAY,
"Yeni Müsavat"**

# Hər tinbaşı aptek - “Dərman biznesinə kommersiya baxışı ilə yanaşılır, gəlir mənbəyi kimi baxılır”

## Həkimlər deyir ki, dünya təcrübəsi öyrənilməli, bu sahəyə pul mənbəyi kimi baxılmamalıdır

**“Bu gün ölkədə apteklərin sayı normadan çoxdur. Bunu istənilən şəxs müşahidə edə bilər. Hətta elə yerlər var ki, bir binanın aşağı mərtəbəsində 3-4 əczaxana var. Apteklərin sayı artsa da, ortada rəqabət yoxdur. Apteklərin sayının çoxluğu məsələsi Milli Məclisdə də müzakirə olunub”.**

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qeyd edib ki, aptek bolluğu ciddi problemlər yaradır: “Bəlkə də dünyanın heç bir ölkəsində bu qədər aptek yoxdur. Hər addımda aptek görürük. Məsələn, bir binanın altında bir neçə aptek fəaliyyət göstərir. Görünür ki, vaxtında insanlar müraciət edib və lisenziya alıb. Həmin apteklərin fəaliyyətinin nə dərəcədə qanunauyğun olub-olmadığını bilmirəm. Hesab edirəm ki, əczaçılıq sahəsində kifayət qədər çatışmazlıqlar var. Seçicilərlə görüş zamanı hətta dərmanların keyfiyyəti ilə bağlı, əlçatanlıq və qiymətlə bağlı müraciətlər olur”.




Ə.Əmiraslanovun qaldırdığı məlum məsələ ekspertləri də düşündürür. Onlar da bu gün Bakı şəhərində apteklərin sayının normadan çox olduğunu hesab edir. Onu da qeyd edək ki, apteklərdə çalışanların peşəkarlıq səviyyəsi tam deyil. Hətta dəfələrlə sosial şəbəkələrdə insanlar çox zaman əczaçılardan şikayətlənir. Əsas şikayətlər adətən dərmanları tanımamaq, səhv dərmanlar vermək, həkimin yazdığı resepti düzgün oxumamaq və sairlə bağlıdır.

Ölkədə hər addımbaşı bir aptek olmasının səbəbi nədir? Bu, əhalinin sağlamlığı ilə bağlıdır, tələbat çoxdur, yoxsa rahat biznes yoludur? Deputatın qaldırdığı problemi necə tənzimləmək olar?

**Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasının dosenti, farmakoloq Aydın Əliyev mövzu ilə bağlı “Yeni Müsavat”a şərh verib:** “Bu gün Azərbaycanda apteklərin sayı normadan çoxdur. Bunun çox səbəbi var. Təəssüf ki, Azərbaycanda geniş miqyasda dərman biznesinə kommersiya baxışı ilə yanaşılır. Yəni buna biznes, gəlir mənbəyi kimi baxılır. Müəyyən dərəcədə bu lazımdır. Amma apteklərin insan sağlamlığında, cəmiyyətin maarifləndirilməsində nə qədər önəmli rol oynadığını gərək başa düşək. Yəni hər şeyə pul qazanmaq baxımından yanaşmaq düzgün deyil. Əvvəlcə insanların sağlamlığını qorumaq lazımdır. Keyfiyyətli dərman və qida vasitələri gətirmək vacibdir. Keyfiyyətsiz məhsullar ölkəyə buraxılmamalıdır. Yaxud da, o biznesin özündə də bir halallıq olmalıdır. Hər hansı bir dərmanın real dəyəri, qiyməti var”.

**Farmakoloq əlavə edib ki, ölkəmizdə dərman zavodları açıldıqca bir çox məsələlər həll olunacaq:** “Prezidentimiz bu sahəyə dəstək verib, bir-iki zavodumuz var, daha böyük, dərman istehsal edən zavodlarımız açıldıqca bu problemlərin böyük hissəsi həll olunacaq, camaatın və sahəmizin xeyrinə olacaq. Azərbaycanın böyük fauna və flora aləmi var. O cümlədən sintetik maddələri öyrənmək üzrə bizim kimya, fizika, riyaziyyat institutlarımız və digər sahələrdə yüksək səviyyəli alimlərimiz var. Azərbaycanda, nəhayət, farmakologiya elmi-tədqiqat institutu yaradılmalıdır ki, alimlər bu sahəni öyrənsinlər və əldə etdikləri biliklər zavodlarda istehsala tətbiq olunsun. Bu, böyük problemdir. Lakin bu məsələlər tədricən həll olunduqca, ümumi problemlər də aradan qalxacaq”.

**Həkim-cərrah, professor Adil Qeybulla mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb:** “Sovet dövründə belə deyildi. Apteklərin paylanması prinsipi var idi - əhali sayına görə. Ayrı-ayrı rayonlarda əhali sıxlığına görə apteklərin sayı müəyyən edilirdi. Amma hazırda bir-birinin yanında bir neçə aptek müşahidə edilir. Bunlar bir dövr təcrübə oldu və keçdi. Amma artıq bunlar qaydaya salınmalıdır, həmçinin dünya təcrübəsi nəzərə alınmalıdır. Dünya təcrübəsində apteklərin işləmə prinsipi tamamilə başqadır. Apteklərin sayı həm tələbatdan, həm də bölgüdən asılıdır. Apteklər özəl mülkiyyətdədir - dünyanın əksər ölkələrində belədir. Lakin onlar sığorta prosesinə cəlb olunur. Yəni mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələri tibbin qanunu ilə işləməlidir. İcbari tibbi sığorta sistemi ortaya çıxdığına görə, orada kimə gəldi, nə dərman gəldi, satılmır. Orada dərmanlar yalnız resept əsasında verilir və bu, qeydiyyata alınır. Çünki dərmanların satışı prosesi çox vaxt ambulator xəstələr üçün pulsuz, yəni dərmanlar kateqoriyasına aid olduğuna görə reseptlərin qeydiyyatı aparılmalıdır. Bu, maliyyə məsələsidir. Apteklərin normal işləməsi üçün - sıxlıq məsələsi qaydaya salındıqdan sonra onların icbari tibbi sığortaya cəlb olunması nəzarəti həyata keçirilməlidir ki, apteklərin fəaliyyəti təmin oluna bilsin. Bunlar hamısı vacib məsələlərdir”.

**Həkim əlavə edib ki, əslində bazar iqtisadiyyatına keçdikcə, icbari tibbi sığorta və özəl tibb sektoru mövcud olduqca, apteklərlə bağlı məsələlərə yeni formatda yanaşmalıyıq:** "Bu baxımdan da bu cür tələblər ortaya çıxır və müzakirələr aparılır. Mən düşünürəm ki, Milli Məclisdə hər hansı bir qərar qəbul olunarkən, yəqin ki, beynəlxalq təcrübə birinci növbədə əsas götürülməlidir. Əslində biz hansı bir ölkənin ən yaxşı təcrübəsini - yaxşı olar ki, qardaş Türkiyə modelini tətbiq edək, səhiyyəmizi bu şəkildə inkişaf etdirməliyik və gələcəkdə inteqrasiya üçün imkanlar yaradılmalıdır".

Dünya təcrübəsindən danışırıqsa, apteklərin yerləşdirilməsi məsələsində Almaniyada əhalinin sayı və məsafə əsas meyar sayılır. Eyni bölgədə müəyyən saydan artıq aptek açmaq olmaz.

Fransada “2300 nəfərə 1 aptek” prinsipi tətbiq olunur. Yeni aptek açmaq üçün icazə almaq çox çətindir.

Türkiyədə 3500 nəfərə 1 aptek norması var və yeni aptek açmaq üçün ərazi planlamasına əsaslanan sistem mövcuddur.

İsveç və Norveçdə aptek sektorunun bir hissəsi dövlətə məxsusdur və ciddi nəzarət altındadır.

Ekspertlər qeyd edir ki, Azərbaycanda da aptek açılışına kvotalar qoyulmalı, məsafə və əhali sayı nəzərə alınmalıdır. Əczaçıların sertifikatlaşdırılması və peşə bacarıqlarının yoxlanılması mütləq sistem halına salınmalıdır. İcbari tibbi sığorta sistemi ilə uyğunlaşdırılmış dərman dövriyyəsi və elektron resept sistemi tətbiq edilməlidir. Əczaçılıq sahəsində dövlət nəzarəti gücləndirilməli, keyfiyyətli dərman təminatı və xidmət mədəniyyəti inkişaf etdirilməlidir.

Afaq MİRAYİQ,
“Yeni Müsavat”



# Ürək üçün ən zərərli 5 qida - emal olunmuş ət, şəkər, duz və...

**Kardioloq Maqdalena Perello pəhrizin ürək sağlamlığına əhəmiyyətli dərəcədə təsir etdiyini deyib. Musavat.com xəbər verir ki, o, La Razon nəşrinə müsahibəsində ən zərərli beş məhsulun adını çəkib.**

Perello qeyd edib ki, emal edilmiş ətlərdə yüksək miqdarda duz, doymuş yağ və konservantlar var ki, bu da ürək-damar xəstəlikləri riskinin artması ilə əlaqələndirilir. Şirin içkilərin tərkibindəki çox şəkər ürək xəstəliklərinin risk faktorlarından biri olan çəki artımına səbəb olur.

Bunlardan başqa, həkim peçenye, çörək və çipslərin tərkibində olan trans yağların xolesterinin səviyyəsini yüksəltdiyini və qan damarlarında iltihaba səbəb olduğunu bildirib. Mütəxəssisin sözlərinə görə, ağ çörək qanda qlükoza səviyyələrində sıçrayışlara səbəb olur və bu zamanla damarlara zərər verə, metabolik sindroma, 2-ci tip diabetə və ürək xəstəliklərinə səbəb ola bilər. “Duz bədəndə mayenin tutulmasına səbəb olur ki, bu da qan təzyiqinin artmasına yol açır”, - deyə mütəxəssis yekunlaşdırıb.

Daha əvvəl nevroloq Sebastyan Ameris gənclər arasında insult hallarının artmasını izah etmişdi. Onun sözlərinə görə, risk faktorlarından biri müasir dünyada bütün insanların yaşadığı stressdir.

Musavat.com



# Son bir həftədə 1730 elektron xəstəlik vərəqi imzalanıb

**“E-bülleten” sisteminə keçid olunan gündən mayın 6-dək 1730 elektron xəstəlik vərəqi imzalanıb. Bu barədə “Report”un sorğusuna cavab olaraq Səhiyyə Nazirliyi Rəqəmsal Səhiyyə Mərkəzindən məlumat verilib.**

Qeyd edək ki, mayın 1-dən Səhiyyə Nazirliyinin “Vahid Səhiyyə İnformasiya Sistemi” vasitəsilə “Sığortaolunanlar üçün xəstəlik vərəqələri” Səhiyyə Nazirliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində elektron sənəd formasına keçilib.

# YENİ MÜSAVAT

## Son səhifə

N 79 (8689) 8 may 2025

May




## “Çin restoranı sindromu”: miqrenə səbəb olan qidalar

**Miqren təkcə güclü başağrısı deyil, bir çox insan üçün əsl problemdir. Müəyyən edilib ki, qida rasionu miqren tutmalarının sayına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bu barədə rusiyalı nevroloq İnna Filatova kp.ru saytına müsahibəsində danışıb. O qeyd edib ki, 20-30% hallarda miqren tutmaları müəyyən məhsulların qəbulu ilə ağırlaşır. Bunlara pendir, şokolad, sitrus meyvələri, eləcə də Şərq ədviyyatları ilə zəngin qidalar daxildir. Bu cür məhsulların yaratdığı ağrı hücumlarına, hətta “Çin restoranı sindromu” adı da verilib. Miqrenə səbəb olan əsas maddələrdən biri dadlandırma üçün tez-tez konservləşdirilmiş və dondurulmuş qidalara əlavə edilən qlutamat mononitrat maddəsi ola bilər. Bundan əlavə, şirin qazlı içkilərin tərkibində olan aspartam da miqren tutmalarına səbəb ola bilər.**

Həkim miqrendən əziyyət çəkən xəstələr üçün gündəlik rejimə riayət edilməsinin və müntəzəm qidalanmanın vacibliyini vurğulayıb. Onun sözlərinə görə, aclıq ağrılı tutmalara səbəb olan amillərdən biridir.

# İsveçrədə qadın başqasının pişiyini yemlədiyinə görə məhkəməyə verildi



**İsveçrənin Sürix şəhərində 68 yaşlı qadın qonşusunun Leo adlı pişiyini müntəzəm olaraq yemlədiyinə görə hakim qarşısına çıxarılıb. Qadın pişiyi o qədər ələ öyrədib ki, o, daha evə qayıtmayıb. İsveçrə qanunvericiliyinə görə isə pişiklər “başqalarının malı” sayılır və onların sistemli şəkildə bəslənilməsi və sığınacağın verilməsi qanunsuz yiyələnmə hesab edilir. Şəhər prokurorluğu başqasının pişiyinə qanunsuz yiyələndiyinə görə təqaüdçünün cərimələnməsini tələb edir. İş materiallarına görə, o, 10 ay ərzində eyni evdə yaşayan Leonu dəfələrlə yemləyib. Qadın cəza haqqında ilkin qərarı qəbul etməkdən imtina etdiyi üçün iş məhkəməyə gedib.**

# Rusiyada həkimlər kişinin nəhəng “iblis buynuzu”nu əməliyyatla götürüblər



**Rusiyada həkimlər Naberejnıye Çelnı şəhərindən olan kişidəki nəhəng “iblis buynuzu”nu əməliyyat vasitəsilə götürüblər. Kişidə yeni törəmə 2022-ci ildə əmələ gəlib. Buynuzun ölçüsü xeyli böyüyəndən sonra və ağrılara səbəb olduğuna görə o, həkimlərə müraciət etməli olib. Kişini əməliyyat edən həkim Ruzil Xurmatillinin sözlərinə görə, xalq arasında “iblis buynuzları” adlandırılan keratomlar adətən kiçik ölçüdə olur və xüsusi təhlükə yaratmır: “Lakin indiki halda yeni törəmə 11 santimetrədək böyüyüb və zədə halında bədxassəli şişə çevrilə bilər. Keratom götürüldükdən sonra yenidən çıxmaması üçün həmin yer dağlanıb”.**

## Alçanı duzlayıb yeyənlərə vacib xəbərdarlıq

**Alça yaz-yay aylarının əvəzolunmaz meyvələrindəndir. Bu meyvə daha çox duzla istehlak edilir. Bəs alçanın duzla yeyilməsi orqanizmimizə necə təsir göstərir? Bu meyvə duzla və həddindən artıq miqdarda yeyildikdə orqanizmdə suyun yığılmasına, ödəm əmələ gəlməsinə və təzyiqin artmasına səbəb olur.**

Alça özü C vitamini, antioksidantlar və lif baxımından zəngindir. Duz isə bədənin müəyyən elektrolit balansını qorumaqda rol oynayır, lakin miqdarı vacibdir. Duzlu alçanı tez-tez yemək qan təzyiqini artırır, xüsusilə hipertoniya problemi olan insanlar üçün risklidir. Duz və turş meyvə birlikdə mədə qıcqırması, reflü və qastrit kimi problemləri artıra bilər. Eyni zamanda həddindən artıq duz böyrəkləri yükləyir və sidiklə mineral itkisinə səbəb ola bilər. Duz bədəndə şişkinlik və su tutma (ödem) yarada bilər.

Ara-sıra, az miqdarda alçanı duzlayıb yemək zərərli deyil. Amma gündəlik vərdiş halına gətirmək və çox duz istifadə etmək sağlamlığa mənfi təsir göstərə bilər.

## Bunları bilirsinizmi?

* Çörçil qadın tualetində doğulub.
* Amerikada dünya əhalisinin 5 faizi, cinayətkarların isə 25 faizi yaşayır.
* Dünya üzrə 5-7 min pələng ev heyvanı kimi saxlanılır.
* Dünyada hotellərin 40 faizi hər gecə boş qalır.
* Qadınların 96 faizi boyunlarından öpülməkdən xoşlanır.
* Dünyadakı ən populyar ad Məhəmməddir.
* Göy rəngin sakitləşdirici təsiri var. Buna görə də Twitter, Facebook, Skype kimi şirkətlərin loqosu bu rəngdədir.
* Statistikaya görə, riyaziyyatı zəif bilən adamlar yalan danışmağa daha çox meyillidirlər.
* Oyanmaq və gün ərzində oyaq qalmaq üçün səhər seksi kofedən daha çox təsir edir.
* İçkinin üstündəki etiketi cırırsınızsa, böyük ehtimalla seksual baxımdan təmin olunmursunuz.
* Araşdırmalara görə, ilk öpüş ilk seksə nisbətən daha yaddaqalandır.
* Bir qadın orta hesabla ən çox 47 saat 15 dəqiqə sirr saxlaya bilər.
* İnsanların 80 faizi yatmamışdan qabaq başlarında real həyatda olmasını istədikləri ssenariləri yazır.

## Solaxaylarda hansı nevroloji pozğunluqlara daha çox rast gəlinir?



**Bu yaxınlarda beynəlxalq alimlər qrupu metatəhlil zamanı solaxaylıq (hər iki əli eyni dərəcədə işlətmək qabiliyyəti) ilə disleksiya, şizofreniya və autizm kimi bir sıra nevroloji pozuntular arasında əlaqə aşkar ediblər. Bu pozuntular tez-tez həyatın erkən dövründə ortaya çıxır və dilin müəyyən aspektlərini mənimsəməkdə çətinliklərlə müşayiət olunur.**

Oxu.Az xəbər verir ki, bu barədə araşdırma “Psychological Bulletin” jurnalında dərc olunub. “Biz təxmin etdik ki, solaxaylıq simptomlarının dillə əlaqəli olan pozuntularla bağlı olma ehtimalı var. Hər ikisi beynin bir tərəfində yerləşdiyi üçün onların inkişafı və pozulması bir-biri ilə əlaqəli ola bilər”, - deyə Rur Universitetinin (Boxum, Almaniya) Koqnitiv Neyrologiya İnstitutundan doktor Culian Pakheyzer izah edib. Tədqiqatçılar həmçinin solaxaylığın həyatın erkən dövründə özünü göstərən xəstəliklərlə əlaqəli ola biləcəyini irəli sürüblər. Çünki uşağın hansı əlindən daha çox istifadə etdiyi inkişafın erkən mərhələsində artıq aydın görünür.

“Hər iki fərziyyə təsdiqləndi. Məsələn, solaxaylıq və ambidekstriya (hər iki əldən eyni dərəcədə istifadə bacarığı) sağlam insanlarla müqayisədə disleksiyası olan şəxslərdə statistik cəhətdən əhəmiyyətli dərəcədə daha çox müşahidə olunur”, - Hamburq Tibb Məktəbindən professor Sebastyan Oklenburq qeyd edib. Bununla belə, solaxaylıqla adətən 30 yaş ətrafında ortaya çıxan depressiya arasında heç bir əlaqə aşkar edilməyib. Müəlliflərin fikrincə, bu nəticələr solaxaylıqla müxtəlif nitq pozuntularının beynin erkən inkişafında üst-üstə düşən proseslərdən qaynaqlandığını göstərir.

## Özbəkistanda qiyabi ali təhsil ləğv edildi

**Özbəkistan ali təhsil müəssisələrində qiyabi təhsil formasını ləğv edib.**

Oxu.Az “Uznews”a istinadən xəbər verir ki, 2025/2026-cı tədris ilindən etibarən qiyabi formada təhsil üzrə qəbul dayandırılacaq. Hazırda qiyabi şəkildə təhsil alan tələbələr tədrisə adi qaydada davam edəcəklər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fərmanına əsasən, qiyabi təhsil əvəzinə alternativ təhsil formaları inkişaf etdiriləcək. Bununla belə, bu formalarda qəbul gündəlik təhsilə qəbulun 50%-ni keçməməlidir. Alternativ təhsil üçün müəyyən edilmiş kvotaları aşmaq kobud pozuntu hesab ediləcək və təhsil müəssisəsinin lisenziyasının ləğv edilməsinə səbəb ola bilər. Həmçinin bütün ali təhsil müəssisələrində - tabelik statusundan və mülkiyyət formasından asılı olmayaraq - təhsilin keyfiyyətinə nəzarət üçün xüsusi bölmələr yaradılacaq.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

Lisenziya N: B 114
SAYI: 1.500